*Nəriman Əyyub*

# DÜNYA

Nərgiz NƏŞRİYYATI

BAKI-2015

Redaktoru: ***Qəşəm Nəcəfzadə***



***Kitabın nəşrinə göstərdiyi maddi və mənəvi dəstəyə görə xeyirxah və qayğıkeş insan Rəhim İbrahimxəlil oğlu Hacıyev cənablarına dərin minnətdarlığımı bildirirəm.***

***Müəllif***

***Nəriman Əyyub*** "Dünya" Poemalar və şeirlər. Bakı, ***"Nərgiz"*** nəşriyyatı, 2015, - 224 səh.

Bu şair Nəriman Əyyubun oxucularla iyirmi birinci görüşüdür. Kitabda xalqımızın böyuük oğlu, Milli liderimiz Heydər Əliyevin istər Sovetlər dövründə, istərsə suverenliyimiz zamanı gördüyü işlər geniş şərh edilmişdir. Eləcə də Qarabağ və Vedibasar həsrəti şairin qəlbini göynədir. Rubailərində böyük məsələlər şərh edilir. Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

$N\frac{742000000}{079}858-2015$

© «Nərgiz», 2015

# VƏTƏNƏ BÖYÜK MƏHƏBBƏT DUYĞULARI

Nəriman Əyyub sonuncu (hələlik sonuncu) kitabının əlyazmasını bu günlərdə mənə verdi, özü də ürəklə, ərklə dedi ki, al oxu, fikrini yaz. Mən də oxudum, rəy yazanda da ilk dəfə dilimə gələn "şükür" kəlməsi oldu. Ona görə ki, Nəriman müəllim ömrünün kamil çağında hələ də böyük şövqlə yazıb yaradır. O, həyatın sərt sınaqlarında ruhdan düşmür. Vətənə, xalqa inamını itirmir, yurdumuzun gözəlliklərini tərənnüm edir. Vətənimizin bayrağını hər şeydən uca tutur. Onun şəninə sidq-ürəkdən nəğmələr qoşur. Vətənimizin sərvətlərinə göz dikənləri nifrətlə qamçılayır. Hərdən düşünürəm ki, Nəriman müəllimdə bu qədər ilham, həvəs hardandır, bu güc-qüvvət ona hardan gəlir?

***İyirmi yaşında işə başladım,***
***Yaxşı işçi kimi ucaldı adım.***
***Atam Əyyub oldu mənim ustadım,***
***Doxsan il yaşadı Ana da, şükür.***

Şeirdən göründüyü kimi, Nəriman müəllimin ilham mənbəyi yalnız əməkdir, sevdiyi işlə, peşə ilə məşğul olmaqdır və ustadı atası Əyyubdur, o da yaxşı yaşayıb və ən əsası hər gördüyü işdən sonra o sirli - xudaya şükür eləməkdir. Kitabı üç hissəyə bölmək olar. Poemalar: - "Ulu Öndər", "Tərcümeyi-hal", Rübailər və müxtəlif səpkili şeirlər.

İstər poemalarda, rubailərdə və müxtəlif səpkili şeirlərdə həyatın, daha doğrusu, Azərbaycanımızın tarixi bədii lövhələrlə əks olunur. "Ulu Öndər" poemasında 20-ci əsrin ikinci yarısından başlayan tariximiz öz əksini tapır. Bu tarixin qəhrəmanı Azərbaycan xalqının ləyaqətli oğlu Heydər Əliyevdir. Onun içtimai-siyasi fəaliyyəti poemanın əsas sujet xəttini təşkil edir. Ulu Öndərin

xalqın təkidi ilə ikinci dəfə hakimiyyətə gəlməsi və daxili düşmənlərimizlə xarici düşmənlərin əlbir olması və bütün çətinliklərə baxmayaraq, Heydər Əliyevlə və xalq birliyinin təntənəsi poemada geniş tərənnüm olunur. Heydər Əliyevin dövlətçilik təcrübəsi, xalq sevgisi, siyasi uzaqgörənliyi poemada böyük məhəbbətlə qələmə alınıb. Erməni işğalçılarına dərin nifrət hissi, dövlətçiliyimizə böyük inam poemanın əsas məzmunudur.

Nəriman Əyyubun belə şövqlə yazıb-yaratmasının daha bir ciddi səbəbi var. Bu da onun Qərbi Azərbaycanda anadan olmasıdır. Onun qanında qədim yurd yerlərimizin sevgisu çövlan eləyir. Həmin sevgidir şairimizə qol-qanad verən. Dağlarımızın, axar-baxarlı yaylaqlarımızın mayasıdır onun qan damarlarını belə çoşduran. Nəriman Əyyub "Tərcümeyi-hal" poemasında öz taleyini yazmışdır. Şairin faciəli taleyi xalqının taleyi ilə eynidir. Bu faciəli tale 1949-1953-cü illərdə Stalinin əmri ilə 200

min azərbaycanlının Kür-Araz ovalığına köçürülməsidir. Dədə-baba yurd yerlərindən didərgin salınan azərbaycanlılardan biri də Nəriman Əyubun ailəsidir. Şair hələ də o doğma yerlərin həsrətini çəkir. Poema Qərbi Azərbaycanın canlı xatirəsi və xəritəsidir.

***Çay qırağı, yaşıl meşə, göy çəmən,***
***Çayın gözəl şırıltısın sevirəm.***
***Meşədəki yaşıl yarpaq, yasəmən,***
***Külək vuran xırıltısın sevirəm.***

***Kəpəzin döşündə o xan bulağı,***
***Qırx bulağı olan gözəl yaylağı.***
***Haçadili olan o gözəl dağı,***
***Şimşək çaxan nəriltisin sevirəm.***

Poemada Qərbi Azərbaycanın yer-yurd, dağ, çay-bulaq, kənd, el-oba adları böyük məhəbbətlə təsvir edilir. Nəriman Əyyub həmin yerlərdən güc-qüvvət almışdır. Onun ilham mənbəyi qoyub gəldiyi, əlindən alındığı doğma, əziz yurd yerləridir.

Yurd yerinin ağrısı Nəriman müəllimin bütün şeirlərində ana xətt kimi keçir.

***Çay kimi çağlayan Porpor bulağı,***
***Ondan aşağıda Ələkbər dağı.***
***Ağmanqalın, Dəvəgözün yaylağı,***
***Orda kəhər çapan Ərən necə oldu?***

***Vedibasarımın Milli dərəsi,***
***O Mirzik kəndində gəldim dünyaya.***
***Gözəldir bu yerin hər mənzərəsi,***
***Oradan boylandım günəşə, aya.***

Nəriman Əyyubun kitaba daxil etdiyi rubailəri içitimai, fəlsəfi xarekter daşıyır. Burda da vətən, xalq məhəbbəti əsas rol oynayır. Şairin vətən sevgisi, müharibəyə qarşı kəskin etiraz, sülhə, əminamanlığa çağırış şairin əsas məqsədidir. Kitaba şairin müxtəlif mövzularda şeirləri də daxil edilmişdir. Nəriman müəllim öz dəsti-xəttinə həmişə sadiq qalaraq qələmini müxtəlif mövzularda sınayır.

***Axırıncı çərşənbə, Novruz bayramı***
***Gəldi ürəyimdə yaz təzələndi.***
***Oynadı, rəqs etdi, şənləndi hamı,***
***Bu qoca qəlbimdə naz təzələndi.***

Nəriman Əyyub həmişə şair kimi təzə və yenidir.

Mən Nəriman Əyyuba yeni yaradıcılıq uğurları arzu edirəm.

***Qəşəm Nəcəfzadə,***

*Azərbaycan yazıçılar Birliyinin*
*İdarə heyətinin üzvü*

# ULU ÖNDƏR
***Poema***

Böyükdən böyükdür  O Ulu Öndər,
Eləcə doğulub ilk gün anadan.
Ondadır igidlik, ondadır hünər,
Müxalif nə gizlət, nə də onu dan.

Orta məktəbdə də əlaçı idi,
Şagird yoldaşlardan fərqli göründü.
Bu igidlik onda qaldı əbədi,
Nə tənbəl olmadı, nə də ərindi.

Atasının adı Peyğəmbər adı,
Özünün də adı onlardan biri.
Öz atası idi onun ustadı,
Bütün övladlardan O idi iri.

Yaş ötdü qurtardı orta məktəbi,
Orta məktəbdə də əlaçı oldu.
Hamıdan itiydi o iti təbi,
Sanma beləlәri dünyada boldu.

Bu nadir insanlar yaranır tək-tək,
Bir neçə əsirdə yaranır biri.
Bir də ki insanı böyüdür əmək,
Böyük olur əqli, həm də səbiri.

Xoşa gəlməz işə baş qoşmadı O,
Hünəri tam idi, kişi hünəri O.
Eylədiyi işlərdən heç çaşmazdı O,
Böyük işlər gördü illərdən bəri.

Dahilər dahitək yaranır eldə,
Elə ilk günlərdən fərqli görünür.
Onları çox sevir Vətən də, el də,
Nə tənbəl görünür, nə də ərinir.

İlk gündən əqilli olubdur Heydər,
Təhlükəli yerdə işləyən zaman.
Elə orada da göstərib hünər,
Ən çətin işlərdən çıxırdı hər an.

Çox böyük olubdur onun hünəri,
Gündən-günə daha böyük görünüb.
Özüm də görmüşəm illərdən bəri
Nə tənbəl olmayıb, nə də ərinib.

Sovetlər dövründə xeyli işlədi,
Azərbaycanımda Birinci Katib.
Gözümlə görmüşəm nələr eylədi
On beş respublikadan Birinci Katib.

Baş katib olanda ana Vətənə,
Az keçməmiş Vətən oldu birinci.
Mükafatlar aldı O dönə-dönə,
Vətənin yüksəldi gündə sevinci.

Sovet Dövlətinin O Başbiləni,
Azərbaycan irəlidədi söylədi.
O da tərifllədi bizim Vətəni,
Onda Heydər bilin nələr eylədi.

Həmin zaman batmış olan ölkəni,
Qısa vaxtda irəliyə çıxartdı.
Söyləyirəm doğru bilin siz məni,
Gecələr də sanki qısa vaxt yatdı.

Azərbaycan hər il aldı bayraqlar,
On beş respublikanın ən qabaqçılı.
O illər əbədi qaldı yadigar,
Bayramlar keçirdi onda hər ili.

Dəyişdi ölkəmin bütün hər yeri,
Kəndlərdə tikildi böyük saraylar.
Belə dirçəlişin oldu səməri,
Xoş keçdi işimiz həftələr-aylar.

Sosialist Əməyi Qəhrəmanları,
Çoxaldı illərlə, aldı medallar.
Qəhrəmana döndü işçinin yarı,
Yadigar qalıbdır bizə o hallar.

O vaxt işləyirdim bizim sovxozda,
Beş min ton pambığı bizlər verirdik.
Milyonerə döndü həmin sovxoz da,
Pambıqları maşınlarla dərirdik.

İlin axırında böyük mükafat
Alırdı, sovxozun zəhmətkeşləri.
Alırdıq illiyi hətta iki qat,
Heydər işlədiyi illərdən bəri.

Beləcə işlədi Heydər Əliyev,
Xalqımız yaşadı xoşbəxt-firəvan.
İşçilər söylədi onu yaxşı sev,
Gülüstana döndü şən Azərbaycan.

Sosialist Əməyi Qəhrəman adı,
Özünə verildi ikicə dəfə.
O da oldu rəhəmanlar ustadı,
Atırdı gülləni doğru hədəfə.

Yaxşı işləri cavabsız qalmadı,
Siyasi Büroya üzvü seçildi.
Mötəbər kürsülər üzünə güldü,
Ən böyük yerlərdə adı çəkildi,.

Moskovaya dəvət olunan zaman,
Yığdı öz başına neçə insanı,
Xeyli qəhərləndi Heydər həmin an,
Sanki vətənindən ayrılır canı.

Qəhərlə oxudu Azərbaycanı,
O zaman gözündən xeyli yaş axdı.
Fikirə qərq oldu həmin o anı,
Baxdı insanlara O xeyli baxdı.

"El bilirki sən mənimsən,
Yurdum yuvam məskənimsən.
Anam doğma vətənimsən,
Ayrılarmı könül candan,
Azərbaycan, Azərbaycan".

Vurğunun bu şeri təsəlli oldu,
Gözlərini sildi yaylığı ilə.
Sanki məğrur sifət bir azca soldu,
Sonra sağollaşdı O gülə-gülə.

Beləcə ayrıldı doğma vətəndən,
Getdi Moskvaya işləmək üçün.
Elə həmin gündən başa düşdü dən,
Apardı oraya O tamam köçün.

Eləki çatanda O Moskvaya,
Seçildi Baş Nazir birinci qolu.
Orada da döndü günəşə-aya,
O böyük bir dahi, O əqli dolu.

Sovet Dövlətinin çətin işləri,
Ona verilirdi xaincəsinə,
Hər şeyi aşırır onun hünəri,
Hər çətin işlərə gərirdi sinə.

Xain xristyanlar bəzən sevinmir,
Onun eylədiyi qəhrəmanlığa.
Sanki iradəsi dəmirdir-dəmir,
Əhəmiyyət vermirdi, hər alçağa.

Eləki Brejniyev öldüyü zaman,
Seçmək istədilər onu birinci.
Bəziləri ona vermədi aman,
Heç təsirlənmədi  o qəlbi inci.

Birinci olsaydı o zaman Heydər,
Hələ yaşayırdı Sovet dövləti.
Ondaydı igidlik, ondaydı hünər,
Dağıtmaq olmazdı dövləti qəti.

Heydəri sevmirdi xain Qarbaçov,
İstəyirdi onu çıxartsın işdən.
Fəqət saymayırdı Heydər dəlisov,
Əl çəkə bilməzdi kişi vərdişdən.

Ancaq nə etməli çox idi onlar,
Birmüsəlman nə eyləsin onlara.
Vəhşi canavarlar, o qəlbiqanlar,
Bir də ki onları aldatmış yanlar.

O vaxt xəstələndi söndü Zərifə,
O böyük sevgisi ilk zərbə oldu.
Sanki güllə dəydi olan hədəfə,
Çox təsir eylədi bir az da soldu.

Sevgisiz, tənhalıq sarsıtdı onu,
Ürəyində infakt yarandı dərhal.
O sevginin heç vaxt olmazdı sonu
Özünü bərk tutdu olmadı bihal.

Dəfn oldu Zərifə O xəstələndi,
Müalicə olurdu xəstəxanada.
Sandı ki dinc yeri doğma vətəndi,
Yenə incitdilər xəstəxanada.

Çıxartdılar Onu ərizəsiylə,
Qısa vaxt yaşadı orada yenə.
Partiyadan çıxdı O bilə-bilə,
Can atırdı gələ doğma vətənə.

Erməniyə satılan vəhşi, Qarbaçov,
Bakıya göndərdi böyük bir ordu.
Ona da qoşuldu neçə vəhşi ov,
Dağıtdı şəhəri Bakı tək yurdu.

Qırıldı nə qədər günahsız insan,
Vecinə almadı o yaramazlar.
Bakı qana döndü həmin o zaman,
Qırdılar boylandı o əqli azlar.

Qırmızi meydanda dindi Heydər bəy,
Ağladı xalqının ağır dərdinə.
Təqib eyləyirdi neçə ağlı səy,
Heydər güvənirdi xalqın mərdinə.

Qəflətən köç etdi O vətəninə,
Vətəndə də rahat buraxmadılar.
Təxribatlar yaradırdılar yenə,
Biqeyrətlər eyləmədilər ar.

Qala bilmədi heç bir az Bakıda,
Uçdu təyarəylə Naxçıvanına.
Fəqət istəyirdi doğma Bakıda,
Arxayın baxardı şirin canına.

İki əlli qucaqladı Naxçıvan,
Görüşməyə gəldi bütün camaat.
O gözəl vətəni-o nəxşicahan,
Orada başlandı yenidən həyat.

Oradan seçildi Ali Məclisə,
Naxçıvanın Ali rəhbəri oldu.
Qulaq asdı muğamata, təcnisə,
Naxçıvan igidi bilin ki boldu.

Güvəndi ordakı qəhrəmanlara,
Bir də saf üəkli olan xalqına.
Hələ çox keçməmiş xeylicə ara,
Səfərlər eylədi ordan hər yana.

Türkiyəyə tərəf düzəltdi körpü,
Açdı o körpünü Dəmirəl ilə.
Qardaşlıq körpüsü oldu o körpü,
“Bir xalq, iki dövlət”-gətirdi dilə.

Bu sözü daimi əzbər dillərdə,
Türk xalqını qardaş sandıq hamımız.
Bir–birinə yaxın oldu dillər də,
Bərabərdir səhərlə axşamımız.

Ali Sovetə də oldu deputat,
Ağız büzdü Bakıdakı nadanlar.
Cəsarət topladı Öndər ikiqat,
Heç kimi saymadı O həmin anlar.

Gəldi cəsarətlə sözünü dedi,
Zalda qışqıranı heç də saymadı.
Onun igidliyi daim əbədi,
Heydəri Kərrardı peyğənbər adı.

Qaldı Naxçıvanda bir müddət belə,
Dəyişdi Sovetlər olan bayrağı.
Cümhüriyyət bayrağı göstərdi elə,
O vaxtdan əbədi qalan bayrağı.

Referendum keçiriləndə Bakıda,
Qoymadı Naxçıvan versin ona səs,
Sovetləri istəmirdi Bakı da,
Referendum keçdi Bakıda əbəs.

Xalq küçəyə çıxıb demişdi sözün,
Heç kim istəmirdi Sovet Dövlətin.
Özün də şahidsən, oxucum, özün,
Bir daha istəmək olmazdı qəti.

Ara qarışdıran müxalif dəstə,
Zorla prezident seçdilər onlar.
Sevinib çaldılar seygah-şikəstə,
Bu beyni zəiflər, əqidəsi dar.

İkinci prezident oldu Elçibəy.
Onu qoymadılar başlı-başına.
Onlara inandı qaldı Elçibəy,
İnandı onlara çiy yoldaşına.

Baş Nazir seçildi qarpız satan kəs,
Hərbi Nazir riyaziyyət müəllimi.
Ali Sovet sədri İsa bəy əbəs,
Deputat seçildi neçə səllimi.

Kürsü davaları gündə çoxaldı,
Ölkə yaddan çıxdı qaldı başına.
Azərbaycan üç yerə parçalandı,
Mərmilər töküldü torpaq-daşına.

Gəncədə prezident olmaq istədi
Surət toplamışdı bir dəstə quldur.
Lənkəranda bilmək olmurdu nədi,
Əlikramın yolu başqa bir yoldur.

Surət Elçibəyi vurmaq istədi,
Onu həbs etməyə aldı sanksiya.
Ayrıca bir tələ qurmaq istədi,
Sanırdı hamıdan böyükdü güya.

Elçibəy gördüki gücü çatmayır,
Heydəri cağırdı Bakıya gəlsin.
Ehtiraz edənlər dolu çöl-bayır,
Gəlsə Heydər onda qəlbi dincəlsin.

Tək Elçibəy deyil, doxsan bir nəfər,
Xahişnamə yazıb göndərdi ora.
Heydər baxdı Bakıya etsə səfər,
Qısa vaxtda yaxşı düzələr ara.

Dünya bazarlaşdı, bu iqtisadiyyat,
İnsanı çevirib alverçi etdi.
Dəyişdi hər yerdə keçmişki həyat,
İşi olmayanlar alverə getdi.

Hamı da alveri bacara bilməz,
Bacarmayan nə eyləsin, nə etsin.
Elə də qazancı olmayan gülməz,
Bəs onda zavallı haraya getsin?

Belə çətinləşdi insanın işi,
Kimi işsiz qaldı oldu yalavac.
Həsrət ilə arzuladı keçmişi,
İş tapmayan isə qaldı tamam ac.

Fabriklər, zavodlar o iş yerləri,
Bir ayın içində tarimar oldu.
Fəhlə işləyənlər gördü nələri,
Təkcə iş yerləri o bazar oldu.

Bazarı da bacarmayan zəhmətkeş,
Düşdü ağır günə, çətinliklərə.
Həmin o zəhmətkeş həm də qayğıkeş,
Məcbur olub getdi yad ölkələrə.

Bazar iqtisadiyyatı olan ölkələr,
Heç zaman xalqına xidmət eyləmir.
Orada yaranır neçə kölgələr,
Heç kim də düzlükdən sözlər söyləmir.

Məhsul bol olmasa, bazar heç zaman,
Xalqları firəvan yaşada bilməz.
Bax belə işlərə eyləmə güman,
Zəhmətsiz zəhməti eyləməz əvəz.

Təsadüfu irəliyə gedənlər,
Bilmirmi ki dalda qalan nə edir?
Varı yığıb milyonerlik edənlər,
Özləri də bilmir haraya gedir.

Bərabərlik olmayan bir ölkədə
İnsanları xoşbəxt yaşaya bilməz.
Sonra yaxşılaşmaq olar bəlkə də,
Xoş günləri pis gün eyləməz əvəz.

Kolxozu, sovxozu tez dağıtdılar,
İşsizlik yarandı ana Vətəndə.
Özəlləşdirərək ara qatdılar,
Dərhal əziyyət çəkdi anaVətən də.

Vətən ki qalanda başlı-başına,
Hamının qəlbindən keçdi başbilən.
Mərmilər töküldü torpaq-daşına,
Neçə minə çatdı vətəndə ölən.

Ermıəniyə qarışdı rusun ordusu,
İyirmi faiz torpağı zəbt etdi.
İki əlli tutdu erməni rusu,
Rus aldı torpağı geriyə getdi.

Yeddi rayonumu aldı o ruslar,
Dedi ki xəbərim yoxdu heç zaman.
Nə utandı, nə də ki eylədi ar,
O vəhşi bir xalqdı olmur utanan.

Rusun şinelinə girən erməni,
Aldadır bir anda olan rusları.
Doğru həqiqətdi qınama məni,
Rusun heç olmayıb namusu-arı.

Ay biqeyrət nələr lazım məndədi,
Gəl qurban ol bizim Azərbaycana.
İllərlə sərvətim gedib səndədi,
Uz lazımdır kişidəki utana.

Ermənininin nəyi vardır ay alçaq,
Qoşulmusan erməni qurumsağa.
Zənənini gözləməyən qurumsaq,
Gözləriylə görən həmin alçağa.

Gördük hər üzünü burda olanda,
Bizimkilər axçilər gəzdirirdi.
Bircə axçi evdə yalqız qalanda,
Neçə Səmədləri tez bezdirirdi.

Bizim qurumsaqlar aldı onları,
Törətdi onlardan neçə oğlanlar.
Nə qədəri oldu Səmədin yarı,
Səmədi qucağa alan o canlar.

Həmin o bizlərin törəmələri,
Böyüyüb bizləri nişana alır.
Beləcə olmuşuq illərdən bəri,
Biqeyrət olanlar hələ də qalır.

Vialetda dəyişib Validə oldu,
Atası Samveli Səməd etdilər.
Axçi gəlinləri ölkəmdə boldu,
Yaxşı ki bəzilər çıxıb getdilər.

On beşmin gəlinim var dedi Öndər,
Alıbdır onları biqeyrətlərim.
Di gəl ki onları geriyə döndər,
Hələ gözləyirik allaha kərim.

Övlad törədiblər erməni üçün,
Onlar dayısına kömək eyləyir.
Nə bilirsən onun ürəyin-için,
Bilmək olmur daldalarda neyləyir.

Onu başa düşdü gələndə Öndər,
Dəyişdi hər şeyin tamam mənasın.
Söylədi maşinist maşını döndər!
Dəyişdi qanunun tamam əsasın.

Dahilər anadan doğulur dahi,
Ulu Öndər doğulub anadan belə.
Onu belə yaradıbdır İlahi,
Göndərib vətənə bu gözəl elə.

Ellərim sevindi O gələn zaman,
Bilirdilər ki, elin xilaskarıdı.
Ellərin başından çəkildi duman,
Onun gəlişiylə Vətən yarıdı.

Ay əziz oxucum eşit sən məni,
Bil ki həqiqəti söyləyirəm mən.
Gülşənə döndərdi ana vətəni,
Onunla öyündü bu ana Vətən.

Rahat nəfəs aldıq O işləyəndə,
Götürdü aradan hərci-mərcliyi.
Rahat gedib gəldik hər olan kəndə,
Tərgitdi "qoçular" olan gicliyi.

Hərənin əlində bir silah vardı,
Nəyi istəyirdi onu edirdi.
Davam eyləmədi o işin ardı,
Güclülər gücsüzün qəlbin didirdi.

Belə vəziyyət davam etdi neçə il,
Çünki cəbhəçinin yox səriştəsi.
Bildilər ki onların işi deyil,
Bacarmadı müxalifət dəstəsi.

Yaxşı ki yenidən gəldi Öndərim,
Yığışdırdı bütün qoçuluqları.
Söylədik hamımız Allaha kərim,
Qaldı kölgələrdə müxalif arı.

Seçildi parlament başçısı dərhal,
Elçibəy qəflətən getdi bilmədən.
Kələkidə oldu nədənsə bihal,
Danışırdı oradan hərdən hərdən.

Prezidenti əvəz eylədi Heydər,
Həmin an yarandı əmin-amanlıq.
Qanunçuluqları söylədi Heydər,
Götürüldü ortadan olan gümanlıq.

Qısa bir zamanda seçkiyə getdi,
Seçkidə seçildi Heydər birinci.
Prezident seçilib O nələr etdi,
Sevən xalqımızın qalxdı sevinci.

Öz əliylə yazdı Ali Qanunu
Suveren ölkənin Konstitutsiyası.
Bu qanun qorudu hər həyəcanı,
Yayıldı hər yerə onun sədası.

Ona qarşı təziqlər də çox oldu,
Elə təziqlərdən qorxmadı Heydər.
Çoxdu nanəciblər, ölkədə boldu,
Ali Baş komandan oldu səfərbər.

Zərərsizləşdirdi neçə dəstəni,
Surət, Əlikramın dəstələrini.
Müalicə etdi neçə "xəstəni",
Başa saldı neçə "xəstələrini".

Ələ dolaşanın oldu cəzası,
Qarşısın almasan qudurar gündə.
Sakit dayanmağın yoxdu faydası,
Xoşa gəlməz işlər oldu vətəndə.

Bütün çətinliyə O sinə gərdi,
Qorxmuram söylədi heç bir canidən.
Tanıdı namərdi, həm də ki mərdi,
Ölkə təmizləndi xeyli canidən.

Söylədi nə qədər canım var deyə,
Onu öz xalqıma həsr edəcəyəm.
Alışdı çətinə, hər bir əməyə,
Öz xalqıma xidmət eyləyən bəyəm.

Çağırdı dünyanın şirkətlərini,
Bağladı Əsrin Müqaviləsini.
Qazılsın Xəzərin bütün dərini,
Hamı da eşitdi Heydər deyəni.

Dəyərli buruqlar qazıldı gündə,
Milyon tonla neft fışqırdı göyə.
Nələr olacaqdır bilinmir öndə,
Çoxu qardaş oldu olmadı öyə.

Çəkildi Bakıdan Ceyhana kəmər,
Həm neft kəməri, həm qaz kəməri.
Böyük işlər oldu çox böyük hünər,
Bu işlər olmamış illərdən bəri.

Gözəlləşdi kəndlər, bütün şəhərlər,
Bütün bölgələr də tanınmaz oldu.
Göründü hər yerdə yaxşı hünərlər,
0 köhnə gerilik geridə qaldı.

On ildə cənnətə döndü ölkəmiz,
Dəyişdi ölkəmin köhnə libası.
Xiyabanlar təmiz, küçələr təmiz,
Nəğmələrə çöndü ana laylası.

Onca il prezident olsa da Heydər,
Qəflət xəstələndi bilmədik nədən.
Yıxıldı məclisdə o böyük hünər,
Heyifsiləndi ona bu ana vətən.

Getdi Tükiyəyə müalicə üçün
Oradan da Amerikaya bir başa.
Xalqımız ağladı çox için-için,
Yalvardıq ayağı dəyməsin daşa.

Üçüncü prezident seçilmək üçün,
Namizədliyini geri götürdü.
Sanki his edirdi yükləyir köçün,
Vəzifəni övladına ötürdü.

Onun əvəzinə seçildi İlham,
Onun tərbiyəsin aldığı üçün.
Prezident oldu dördüncü İlham,
Onun əvəzinə qaldığı üçün.

Gəldi Amerikadan bir ağır xəbər,
Heydər dünyasını dəyişib bu gün.
Hamımız tez donduq olduq bir təhər,
Heyif sənə dəyişilib ömürün.

San ildırım vurdu, dondum bir təhər,
Götürüb əlimə aldım qələmi.
Yanıqlı söz yazdım bir neçə səhər,
Hönkürüb ağladım həmin o dəmi.

Fəqət nə eyləmək, Allah biləndi,
Dünyasın dəyişib vətənə gəldi.
Sanki günəş göydən yerə ələndi,
Günəş tək parladı vətəndə Öndər.

Buludlar yaş tökdü, göylər ağladı,
Dənizdə gəmilər verdi fit səsi.
Analar başına qara bağladı,
Qartalın qayada batdı nəfəsi.

Ölümü sarsıtdı bütün cahanı,
Ağlamayan mində birdən az idi.
Göz yaşı islatdı Mili, Muğanı,
Azərbaycan sanki havasız idi.

Əbədi qalacaq, ölməyib Heydər,
O görkəmli dahi, O böyük hünər.
Xalqının yolunda daim səfərbər,
Məzarı önündə cahan ağladı.

Gəldi Amerikadan, İngiltərədən,
Bütün bölgələrdən, dağdan, dərədən.
Müxalif, ibrət al, bu mənzərədən,
Ağsaqqal, ağbirçək cavan ağladı.

Axdı dəstə-dəstə insanlar seli,
Getməyi sarsıtdı bütün bir eli
Xalqımın sönməyən yanan məşəli,
Getməsinə milyon insan ağladı.

Gəldi harayına nə qədər loğman,
Səksən il yaşatdı onu Yaradan.
Gedənədək seçdi ağı-qaradan,
Üstündə oxunan Quran ağladı.

Murov nalə çəkdi, ağladı Kəpəz,
Heydər ölməyibdir  O ölə bilməz.
Şükür İlahiyə veribdir əvəz,
İlhama qoşuldu ümman ağladı.

Ölüm sevinməsin öldürüb onu,
Ölər əgər olsa dünyanın sonu.
İndi hamı bildi kim olduğunu,
Təbriz fəryad etdi yaman ağladı.

Xəbər yayıldıqca bütün dünyaya,
Pərişanlıq çökdü Günəşə, Aya.
Silkələndi sanki Kəpəzdə qaya,
Dağlar sıralandı, aran ağladı.

İnsanlar axışdı dəstəbədəstə,
Qaboy nalə çəkdi ağı-şikəstə,
Güllər qalaqlandı məzarın üstə,
Çöllərdə mələdi ceyran ağladı.

Gördünmü gözünlə yaramaz yağı,
Yad ellərdən gələn milyon qonağı?!
Tərsinə yazırsan qaranı ağı,
Ellərlə birlikdə Şirvan ağladı.

Dahi yaratdmışdı onu Yaradan,
Müxalif, gördüyün həqiqəti qan!
Olan həqiqəti nə gizlət nə dan,
Yevlağa qoşulub Səlyan ağladı.

Böyüklüyünə bax, gözünə inan,
Gəlib başın əydi dörd milyon insan.
Günəş də dayandı sanki həmin an,
Öndər ölümünə zaman ağladı.

Şair Nərimanın qalxdı fəryadı,
Sallandı böyrünə qolu-qanadı.
Qəlbində qalacaq Öndərin adı,
Hönkürüb doyunca Nəriman ağladı.

* * *

Buludlar boşaldı yerin üzünə,
Marallar yığıldı Muğan düzünə.
Həsrət qaldıq Öndərin xoş sözünə,
Şükür sahibsizlik olmaz vətəndə.

Belə bir qəmginlik uzaq getmədi,
Əvəz edənim var, qəmginlik nədi?
İlham seçilmişdi artıq Başbilən,
Ona çox güvənir bu gözəl Vətən.

Öndər etdiyini edir iki qat,
Dəyişdi ölkəni dəyişdi həyat.
Ona heyran olur bütün kainat,
Olan qüsurları geriyə atdı.

Bakının içində gözəl körpülər,
Şəhərin siması bütün dəyişdi.
Bura heyran olur baxan ölkələr,
Söyləyirlər qısa vaxtda çox işdi.

Köhnə Bakı uçuruldu, tikildi,
Köhnə görən indi onu tanımaz.
Xoşa gəlməz binaları söküldü,
Yenə də tikilir hər bahar, hər yaz.

Baxanda şəhərə dincəlir gözüm,
Bakım gözəlləşib, hər yan gözəldi.
Belə gözəlliyə heyranam özüm,
Bəzənib azadlıq meydan gözəldi.

Gözəlliklər verir yeni körpülər,
Onları tikmək də hünərdi-hünər.
Azərbaycanımda bütün bölgələr,
Qədim oğuz yurdu Şirvan gözəldi.

Bütün bölgələrə yollar çəkilir,
Yollar kənarında güllər əkilir.
Yollarda keçidlər, körpü tikilir,
Yevlax bir cənnətdi, Xaldan gözəldi.

Yolun düşsə Gəncəyə doyunca bax,
Gözəlləşib hər küçəsi, hər bucax.
Göygölün suyundan əmir Üçbulax,
Gəncədə hər tərəf, hər yan gözəldi.

Şəkini ziyarət etməyə çalış,
Onu belə gözəl edənə alqış.
Gözəldi həm bahar, həm də olan qış,
Fikir versən Oğuz ondan gözəldi.

Baxsan gözəlləşib Qax, Zakatala,
Dörd yanında olan hər yaşıltala.
Balakən də ondan qalmayır dala,
Orada yaşayan hər can gözəldi.

Bir cənətə dönüb indi Qəbələ,
Şamaxı şəhərin demirəm hələ.
İsmayılı daha gözəldi, Lələ,
Başdan-başa Azərbaycan gözəldi.

Bərdəni gör, oradan keç Tərtərə,
İmişlidə min qotazlı Yəhərə.
Ağcabədidəki hər yaşıl dərə,
Dörd tərəfı yaşıl orman gözəldi.

Bax Şəmkirə, Tovuza və Qaxağa,
Ağıstafadakı hər baxça-bağa.
Onlar yaxşı üz göstərir qonağa,
Onlardakı o istiqan gözəldi.

Nefitçaladan da Biləsuvarı,
Cəlilabatdakı bal verən arı.
Saatlı, Kürdəmir az görür qarı,
Mil düzü cənnətdi, Muğan gözəldi.

Dolan Astaranı, gəl Lənkərana,
Lənkəran limonu dərmandı cana.
Çayın ilk çiçəyi sorulur qana,
Canda yaratdığı al qan gözəldi.

Yadından çıxartma gözəl Göyçayı,
Zərdabın Ucarla istidir yayı.
İksi də gözəldi, deyil qolayı,
Onlarda yaşayan hər Can gözəldi,

Dön uzunömürlü Lerikə sarı,
Görərsən orada o qocaları.
Yardımlıdakı meyvələr barı,
Dağlara bürünən duman gözəldi.

Abşeron dolubdur tam başdan-başa,
Get Xızıya eylə ona tamaşa.
Xaçmazı görənlər az qalır çaşa,
Quba, Qusar birgə Nabran gözəldi.

Araza qarışan Kür çayında çim,
Onda lazım olmaz heç zaman həkim.
Sazımda zövq verir hər çalınan sim,
Onu dilləndirən insan gözəldi.

Yaddan çıxa bilməz Ağdamla Şuşa,
Gözəl Kəlbəcərim Laçınla qoşa.
Qubadlı, Zəngilan gözəl tamaşa,
Cəbrayılda olan hər can gözəldi.

Babalarım tikən doğma Xankəndi,
Oğuz ellərindən qalan Vətəndi.
Vermək olmaz bir meşəni, bir kəndi,
Nə yaddan çıxartma, nə dan gözəldi.

Min kəhər atına get Naxçıvana,
Şərur, Ordubada bütün hər yana.
Çönüb Naxçıvanım bir gülüstana,
Batabat, Sirab su yaman gözəldi.

İgidlər yaşayan Sədərək özü,
Əylisli kəndinin çiçəyi-düzü.
Məmmədəliyevin hər qalan sözü
Onun kimi olan insan gözəldi.

Cavidin ucalan o məqbərəsi,
Məmməd Arazımın hər bir kəlməsi.
Səməd Vurğunumun o incə səsi,
Ələsgərim ilə İman gözəldi.

Dünyaya səs salan Nizami babam,
Onun vəsf etdiyi hər olan obam.
İlahidən yanan Yanardağ sobam,
Yandıqca o dağda hər yan gözəldi.

Yurdum odlar yurdu, Odur əjdadım,
Odlar ölkəsində böyüyüb adım.
Qəzəlxan Fizuli böyük ustadım,
Bizlərə verdiyi dastan gözəldi.

Gəzsən Ceyrançölü, Mili, Muğanı,
Görsən oradakı hər bir ceyranı.
Vahidimdi böyük qəzəlxan tanı,
Yaratdığı hər bir dastan gözəldi.

O Süleyman Rəhim, Mirzə İbrahim,
Ordubadimizi kim tanımır kim?!
Hüseyn Arif tək olan şairim,
Bəxtiyarda bütün dastan gözəldi.

Ölkəmizdə milyon gözəlliklər var,
Şahdağın başında hündür qayalar.
Yazım ellərimi qalsın yadigar,
Azərbaycanımda hər yan gözəldi.

Suverenik deyə hər yer firəvan,
Yaranır gözəllik hər saat, hər an.
Baxanda bizlərə ölür xain Yan,
Ona dediyimiz utan! Gözəldi.

Baxır gözəlliyə şadlanır ürək,
Şadlanmaq yaxşıdır,hamıya gərək.
Ay Vətənim bu xoş günün mübarək,
Bizim bütün Azərbaycan gözəldi.

Belə gözəlliyi yaratdı Öndər,
Onun davamçısı O Böyük hünər.
Qarabağda İlham çalacaq zəfər,
Gözəlləşdirdiyi cahan gözəldi.

Qısa vaxtda nələr-nələr yaratdı,
Yatanları yuxusundan oyatdı.
Onun yaratdığı gözəl həyatdı,
Yaylaqlarla birgə aran gözəldi.

Bütün Azərbaycan cənnətə dönüb,
Erməni baxdıqca ürəyi sönüb.
Hirsindən yaramaz vəhşiyə çönüb,
Ondan yaxşı olan heyvan gözəldi.

Xalqımın qəlbində yaşayır  Öndər,
Əbədi qalacaq, O ölə bilməz.
Xalqın qəhrəmanı, çalıbdı zəfər,
Şükürlər yetirib özünə əvəz.

Əvəzi yaradır xaruqələri,
Şəhərlər tikdirir illərdən bəri.
Öndərdən qalıbdır onun hünəri,
Gördüyü işləri heç vaxt tükənməz.

İlhamın ilhamı Tanrıdan gəlir,
Hünəri düşmənin qəlbini dəlir.
Gözüm gözəlliyə baxıb dincəlir,
Ürəyim deyirki, bölgələri gəz.

Öndərin övladı Öndərə bənzər,
Onun əməlləri dünyanı gəzər.
Hünəri düşmənin qəlbini əzər,
Baş əyir Şah dağı, baş əyir Kəpəz.

Müqəddəs ziyarət, baxan qonağa,
Orada uyuyur Mirmöhsün ağa.
Öndər döndərib o cənnət bağa,
Heç kim belə cənnət yarada bilməz.

Öndərin yolunu düz gedir İlham,
Onun yollarında yanır məşəl-şam.
Ona dərs veribdir O Heydər babam,
Söyləyib düşmənin qəlbin tamam əz.

* * *

Dahidir bəslənən, Dahidir İlham,
Onun qüdrətinə baş əyir dağlar.
O xalqın yolunda yanar məşəl-şam,
O elə dahiydi cavanlıq çağlar.

On üç ildə yaratdığı şəhərlər,
Heyran edir başdan-başa insanı.
Yetişdirir ordumuzda O nərlər,
O heyran edəcək bütün cahanı.

Şəhərləri sökdü, yenidən tikdi,
Yaratdı neçə min göydələnləri.
Xoşa gəlməyəni yenidən sökdü,
Nələri yaratdı, Dahi nələri?!

Azərbaycan oldu turist vətəni,
Xarici insanlar doluşur bura.
Oldu neçə xaricilər məskəni,
Bazar iqtisadiyyatı döndü bazara.

Hələ də yaratmaq keçir fıkrindən,
Öndərin qoyduğu planlar böyük.
Sevimlidir sevir Onu bu Vətən,
Gəncliyindən düşüb boynuna bu yük.

* * *

Qeyrətinə qurban olsun Balayan,
Zori kimi, Serj kimi bevicdan.
Ramili buraxdın yandı Sarkisyan,
İki yüz il yaşa Baş Komandanım,
Səninlə fəxr etsin Azərbaycanım.

Ramil ki gələndə Azərbaycana,
Sənə heyran oldu nə qədər ana,
Zorilər qaldılar çox yana-yana,
İki yüz il yaşa Baş Komamdanım,
Səninlə fəxr etsin Azərbaycanım.

Üç rəngli bayrağı qaldırdın göyə,
Erməni məhv olsun! Sən deyə-deyə.
İgidliyin xalqa oldu hədiyə,
İki yüz il yaşa Baş Komandanım,
Səninlə fəxr etsin Azərbaycanım.

Çox şükür qürbətdə yaxşı qalıbdır,
Xalqımın qəlbində O ucalıbdır.
Doğma xalqı üçün zəfər çalıbdır,
Sən də zəfər çaldın Baş Komandanım,
Səninlə fəxr etsin Azərbaycanım.

İradən, İlhamın gətirdi Onu,
Sevindirdin Vətənimdə milyonu.
Prezidentimiz ol ta ömrün sonu,
İki yüz il yaşa Baş Komandanım,
Səninlə fəxr etsin Azərbaycanım.

Bu igidlik qalıb Heydər atadan,
O da xalqı üçün bağışladı can.
Baxdı O Dahiyə, yandı Sərkisyan,
İki yüz il yaşa Baş Komandanım,
Səninlə fəxt etsin Azərbaycanım.

Gözün aydın olsun Azərbaycanım!
Ay mənim şöhrətim, ay mənim şanım!
Səninlə fəxr edir Milli Nərimanım,
İki yüz il yaşa Baş Komandanım,
Səninlə fəxr edir Azərbaycanım.

## TƏRCÜMEYİ-HAL
***(poema)***

Min doqquz yüz otuz səkkiz, iyirmi
may, Doğuldum dünyaya gəldim həmin
gün. İsti deyil, sərin idi həmin ay,
O güngən başladı yaşamaq ömrün.

Vedibasarımın Milli dərəsi,
O Mirzik kəndində gəldim dünyaya..
Gözəldir hər yeri, hər mənzərəsi,
Oradan boylandım günəşə-aya.

Doğulduğum kənddə qaldım iki il,
Sonra endik arana, Kotanlıya.
Kotanli Mirziktək heç də dağ deyil,
Onda həsrət qaldıq Dəvəgöz çaya.

Kotanlı aşağı kiçik bir bulaq,
Yuxarıda isə Porpor bulağı.
Oraya gedirdik nazik bir yolaq,
Yuxarıda vardı gözəl yaylağı.

Yaşım çatan kimi məktəbə getdim,
Seyid Kotanlıda kiçik bir məktəb.
Tahir müəllimə təzimlər etdim,
Əlifbanı öyrəndim, gəldi yaxçı təb.

Birinci sinifdən əlaçı oldum,
Tahir göstərirdi məni nümünə.
Getdikcə böyüyüb kamala doldum,
Heç də rast gəlmədik yaxşı bir günə.

Üç yaşında idim başladı dava,
O alçaq Hitlerin böyük davası.
Sanki günlər çöndü, qaraldı hava,
Atam getdi, dəyişdi ev havası.

Dörd bacı, cüt qardaş anam saxladı,
Məndən başqa heç kim oxumadı heç.
Elə bil işimiz tamam laxladı,
Oxucum soruşma ondan tamam keç.

Üçüncü sinifim yarımçıq qaldı,
Bizi köçürtdülər Azərbaycana.
Yaşlılar burada dərhal qocaldı,
Qaldıq isti yerdə biz yana-yana.

Gəldiyimiz yerlər dağ ətəkləri,
Sanki təbiəti cənnətə bənzər.
Yevlağa düşdüyüm illərdən bəri,
Möhkəm olanlar da burada bezər.

Bezdik nə edək ki alın yazısı,
Yazılıbdır alnımıza əzəldən.
Getdi əlimizdən şəkər pazısı,
Ayrı düşqdük Vedibasar gözəldən.

Cənnətə bənzəyir o Milli dərə,
Oradan ayrılmaq dərd oldu bizə.
Nə qədər çox idi gözəl mənzərə,
Yemliyi, Mandası güc verir dizə.

Min dərdin dərmanı olan yemişan,
Ələyəzi, əvəliyi min dərman.
Onları yedikcə artırırdı qan,
O gözəl yaylaqlar görən necoldu?

Çay kimi çağlayan Porpor bulağı,
Ondan aşağıda Ələkbər dağı.
Ağmanqalın, Dəvəgözün yaylağı,
Orda kəhər çapan Ərən necoldu?

Qaladibi, Mirzik o Körpükəndi,
Onlar mənim üçün ana Vətəndi.
Onları alıbdır erməni həpəndi,
Yaylaqdan gül, çiçək dərən necoldu?

O gözəl yurd-yuva çıxmır yadımdan,
Nişanə qalmayıb orda adımdan.
Söndürülüb yoxdur ocaq-odumdan,
Qaxı kölgələrə sərən, necoldu?

Yevlax Səmədabad kəndinə düşdük,
İş verildi bizə mal fermasında.
Kürün qırağında istidən bişdik,
Orada bir müddət olub qalanda.

İşlədi fermada atamla Salman,
Səkkiz baş ailəni saxlamaq üçün.
Şair həqiqəti nə gizlət, nə dan,
Sonra da başlandı taxılda biçin.

Atam Əyyub biçin biçməyə getdi,
Biz də qaldıq fermada isti yerdə.
Vedibasar həsrəti qəlblərdən itdi,
Düşdük neçə-neçə ağır bir dərdə.

Belə günlərimiz keçdikcə qara,
Dözdük ağır dərdə, axı nə edək.
İstədik ki geri dönək dübara,
Vedibasarıma yenidən gedək.

O da çətin idi, nə ilə gedək,
Yavan bir çörəyi güclə tapırdıq.
Çox çətin vaxt idi, axı nə edək,
Qışda yandırmağa yappa yapırdıq.

Malın zibilindən yandırmaq üçün,
Yığırdıq çöllərdən nə qədər təzək.
Fermada yaylağa yükləyir kömün,
Qalağa yığmaqla qalırdı təzək.

Belə yaşayırdıq əziz oxucum,
Bilməyiniz yaşayırdıq firəvan.
Qaldılar savadsız qardaşım-bacım,
Təkcə mən oxudum o vaxt, həmin an.

Meşənin içindən xeyli yol vardı,
Gedirdim məktəbə Qarxun kəndinə.
Üçüncü sinifin oxundu ardı,
Təkrar getdim üçüncü sinifinə.

Çünki Kotanlıda yarımçıq qaldı,
Ona görə oxuyurdum təkrarın.
Atam isti yerdə xeyli qocaldı,
Deyildi nə şişkin, nə də ki harın.

Sonra köçdük kəndin içi özünə,
Dördü-beşi oxudum Səmədabatda.
Çox əziyyətlər çəkdim sözün düzü nə,
Kasıb yaşayırdı Səmədabad da.

Dağa getmək üçün köçdük sovxoza,
Sovxoz malqarası gedirdi dağa.
Adı Boz dağıdır, getdik biz Boza,
Ordan da yay ayı getdik yaylağa.

Yayın istisinə dözmürdük deyə,
Əlacsız qalaraq belə edirdik.
Qış yaşayış yeri fermada pəyə,
Yayda isə yaylaqlara gedirdik.

Günlərimiz belə keçdi, çox çətin,
Nə edək bəxtimiz belə yazılmış.
Ancaq dözə bildik möhkəmcə-mətin,
Pis günləri gördük həm bahar, həm qış.

Sovxozda bitirdim orta məktəbi,
Olmadı yaş kağız alam atestat.
Mənə kömək etdi rəhmətlik Nəbi,
Bir də Bəhram müəllim böyük istedad.

Biz köçüb gələndə yaş kağızımı,
Almamışdı atam-anam o zaman.
Mən açan deyildim onda ağzımı,
Bəhram müəllim oldu mənə bir güman.

Söylədiki,  gərəko xarabada?
Olmağınız olsun, olunuz burda.
Alacayıq kağız olmazsız darda,
Almaz sizi boran, nə dəki qar da.

Tapşırdı Nəbiyə, sovet katibi,
Get Yevlaxdan al yaş kağızı.
O idi sovxozda sədir katibi,
Nəbi gedib aldı həmin kağızı.

Odur ki, mən oldum burda doğulan,
Vediyə yazdımsa cavab olmadı.
Hirsimdən sarsıldım sanki boğulan,
Alçaq ermənidən cavab gəlmədi.

Aldım atestatı getdim Bakıya,
Qalmağa olacaq tapa bilmədim.
Sanki batdım çaya, axar bir suya,
Nə edim ki, küçələrdə qalmadım.

Qayıtdım Yevlağa geri dönəndə,
Soruşdular məndən gəldin tez niyə?
Söylədim eşidin mən yazıq bəndə,
Yersiz rast gəlirdim nə qədər çiyə.

Yadımdan çıxmasın, söyləyim sizə,
Yeddinci sinifdə yazdım ilk şeir,
Bir radio almışdım yenicə təzə,
Eşitdim ki, ana şeri deyir.

Fikirləşdim bəlkə bir şer yazım,
Mehriban anamın şəninə mən də.
Kəndimə yayılsın olan avazım,
Ana şeri yazdım evə dönəndə.

Göndərdim Yevlağa qəzetdə çıxdı,
"Təşəbbüs" qəzetdə, sevindim dərhal.
Paxıl şagirdlər də ədayla baxdı,
Kefimi pozmadım, olmadım bihal.

"Ana" şeir oldu birinci şeirim,
Sonra da ikinci "Kəpəz" di adı.
"Ürəklər"di olan üçüncü şerim,
"Gecə lövhəsi" dördüncünün adı.

Tanındım Yevlaxda kiçik bir şair,
Təxəllüsüm oldu Nəriman Məmmədov.
Di gəl məni onda yazmaqdan ayır,
İstər ordan ayır, istər ordan qov.

Ardıcıl yazdığım o şerləri,
Oxuyun onları bilinki nədi.
Yadımdan çıxmayıb illərdən bəri,
Onlar gəncliyimdən bir hədiyədi.

"Ayazlı gecələr, aylı axşamlar,
Sən məni bəsləyib böyütdün ana.
O gənc yaşlarından mənəm yadigar,
Dünya bir yanadır, sən də bir yana.

Həyat baxçasında bir çiçək mənəm,
Sən çiçəklə dolu bar verən ağac.
Ayrılası olsan alışar sinəm,
Bar verən ağaca çoxdur ehtiyac.

Sərin çeşmə kimi qulaqlarımda,
Şirin laylaların səslənir yenə.
Adın təbəssümdü dodaqlarımda,
Mən bütün həyatım borcluyam sənə".

"Qardaşın Murov dağ, üstün duman-
çən, Yalında gəzərkən şadlanır ürək.
Hüsnünə baxdıqca hər gəlib keçən,
Səninlə öpüşüb ayrılsın gərək.

Bir zaman dözmədi o məğrur başın,
Ellərin çəkdiyi dərdə, kədərə.
Qaraldı gözlərin, çatıldı qaşın,
Titrədi səsindən hər dağ, hər dərə.

O vaxtdan şəhidi qoca dünyanın,
Sinəndə yaylanmış min oba, min el.
Bəlkə göz yaşıdır milyon ananın,
Axıb sinən üstdə olubdur Göygöl".

"Nə üçün kitabtək olmur ürəklər,
Açıb oxuyasan hər səhifəsini.
Kaş arayıb onu açıb bir təhər,
Çəkəydim könüllər xəritəsini.

Onda bilərdim ki, hansı ürəkdə,
Min cinayət yatıb, xəyanət yatıb.
Açıqca görərdim hansı bir qəlbdə,
İnsana məhəbbət əmanət yatıb.

Kaş elə qüdrətim olaydı mənim,
Baxanda üzlərə düzün görəydim.
Rentgen cihazı tək olaydı gözüm,
Hər qəlbdən keçənin özün görəydim.

Kaş qandıra biləm mən insanlara,
İnsanlar yaranıb insanlar üçün.
Əgər nadansansa gəzmə avara,
Bir quru yük olma sən zaman üçün".

"Gecəydi yatmışdım yatağımda mən,
Oyatdı yuxudan bir layla səsi,
Gördüm uşağımın anasıdır O,
Hələ də yatmağa qoymur körpəsi.

Durub xeyli zaman xəyala daldım,
Gör nələr çəkirmiş analar nələr.
Onun səhərədək heç yatmaması,
Mənim də qəlbimə vurdu qəlpələr.

Mən də öz anamın körpəsiyəmmiş,
Budur kürlük edən Etibarım tək.
Balamın yanında bir atayam mən,
Anamın yanında görpəyəm gerçək".

Beləcə yarandı ilk şerlərim,
Rayon qəzetində nəşr edildi.
Şükür eylədim ki Allaha kərim,
Yevlax əhli məni bir şair bildi.

Mərkəzi qəzetlər qəbul etmədi,
Göndərdiklərimə cavab olmadı.
Yazdıqlarım isə heç də bitmədi,
Yazdım vərəqlərə heç də solmadı.

Sovetlər dövründə kəndli bir kəsin,
Yazısını çətin çap edirdilər.
Kəndli çıxarammaz heç də gur səsin,
Senzura da vardı lap didirdilər.

Eləki gələndə suverenliyim,
İldə bir kitabım çap olunubdur.
Yaşlaşmış olsam da vardır biliyim,
Nə əqlim azalıb, nə də "donubdur".

Əyani oxumağa gedə bilmədim,
Kasıb olmağımız kəsdi qabağı.
Onda qəhərləndim heç də gülmədim,
Təkcə qapımızda əkdim gül bağı.

Gəncəyə yollandım oxumaq üçün,
Oxudum bir illik mühasibliyi.
Mənimsədim onun göbəyin için,
Öyrəndim ondakı bütün biliyi.

Birillik məktəbi əla qurtardım,
Gəldim kəndimizə işlədim dərhal..
Yaxşıca mühasib işin apardım,
Hər adam işləyər olarsa kamal.

İyirmi yaşımdan bu günə kimi,
Davam etdirirəm hesabdarlığı.
Yaxşca hörmüşəm ondakı himi,
Doğru çıxarmışam daim qalığı.

Atam o zamanı məcbur eylədi,
İşləmə, get qurtar ali məktəbi.
O zaman sözünü qəti söylədi,
Ali təhsilsizin olmayır təbi.

Baxdım ona aldım məzuniyyət,
İmtahan verməyə getdim Bakıya.
İmtahandan aldım müvəfəqiyyət,
Qayıtdım işdən çıxam mən güya.

Gəlib gördüm atam ağır xəstədi,
Apadım Yevlağa müalicə üçün.
Elə ağır idi san can üstədi,
Bir ay qulluq etdim yüklədi "köçün".

Dəfın etdik artıq gedə bilmədim,
Əyani oxumaq qismət olmadı.
Uzun illər keçdi, yaxşı gülmədim,
Təəssüf atam yaxşı ömür almadı.

İyirmi beş yaşında evin başçısı,
Oldum evimizin ağsaqqalı mən.
Kəsdi taleyimi fələk qayçısı,
İşlədim mühasib yenə yenidən.

Şairlik həvəsi apardı məni,
Yenidən qiyabi imtahan verdim.
Onda da eşitdim anam deyəni,
Filoloq olmağım sildirdi dərdim.

Olsam da fıloloq işləmədim heç,
Həmişə mühasib kimi işlədim.
Oxucum soruşma ondan kənar keç,
Daim hesabdarlıq "nanın" dişlədim.

Əlli altı ildir bir nəfəsə mən,
Mühasibliyimi etmişəm peşə.
Əgər ki doğulsam yenə yenidən,
Hesabdarlığımdan alaram nəşə.

Hesabdar olsam da iyirmi kitabı,
İyirmicə ildə çap etdirmişəm.
Ona qalib gəlib biliyimin tabı,
Olan həqiqəti mən söyləmişəm.

Oxu kitabları, oxu, oxucu,
Oxuduqca peşman olmayacaqsan.
Sənə xoş gələcək hər sözün ucu,
Məni zəif şair saymayacaqsan.

Nə yaltaq olmadım, nə də yalançı,
Olan həqiqəti doğru yazmışam.
Rüşvətxor olmadım, nə də talançı,
Vəhşi düşmənimə qəbir qazmışam.

"Dirilən Cəfəri" "Namus" kitabı,
"Haray"ı da başdan başa oxu sən.
"Qətl"dən, "Fəryad"dan alarsan tabı,
İyirmi kitabı oxu yenidən.

Qoyma "Rübailər" qalsın birisi,
Oxusan görərsən orda nələr var.
Oxunsun kitabın kiçik irisi,
Kitablar ömrümdən qalar yadigar.

Tərifləməyimi etmirəm məqsəd,
Sadəcə oxusan bilərsən onu.
Məndə olmayıbdır heç vaxt siyasət,
Sadə bir insanam ta ömrüm sonu.

Taleyim bəd gəldi gec çap olundum,
"Kor oldu zəmanə, görmədi məni".
Bəzən fikirləşib saraldım-soldum,
Vəsf eylədim dönə-dönə Vətəni.

"Vətən" kitabımı oxusan əgər,
Görərsən orada nələr demişəm.
Qovulub ürəkdən olan dərdi-sər,
Vətəni vəsf edib, onu sevmişəm.

Yadımda qalanı söylədim yenə,
Olan həqiqəti oxu sən insan.
Sevirəm Vətəni mən dönə-dönə,
Məni belə yaradıbdır Yaradan.

Tərcümeyi-halımı oxusanız siz,
Görərsiz günlərim necə keçibdir.
Onu söyləmişəm doğru və təmiz,
Qəlbim həqiqəti daim seçibdir.

Demişəm hər sözü olduğu kimi,
Həqiqəti deyən çəkinməməli.
Tənqid eyləmişəm saxta hakimi,
Sayın ya ağıllı, ya da ki dəli.

Həqiqəti qoyub yalan yazmıram,
Nəyi görürəmsə yazıram düzünü,
Doğru olan yollarımı azmıram,
Saxlayıram doğruluğun üzünü.

Çıxan deyiləm mən o doğru üzdən,
Mən necə olmuşam elə qalacam.
Bircə çox qorxuram coşğun dənizdən,
Zövqü şəlalədən, çaydan alacam.

Çay qırağı yaşıl meşə, göy çəmən,
Çayın gözəl şırıltısin sevirəm.
Meşədəki yaşıl yarpaq, yasəmən,
Külək vuran xırıltısın sevirəm.

Kəpəzin döşündə o Xan bulağı,
Qırx bulağı olan gözəl yaylağı.
Haçadili olan o gözəl dağı,
Şimşək çaxan nəriltisin sevirəm.

Günlərimiz orda keçdi bir zaman,
Bəsti bacım orda oldu anadan.
Bulud guruldadı söylədim ay can,
Buludların gurultusun sevirəm.

Dağ oğluyam dağda keçib günlərim,
Quzu otarmada olub hünərim.
Hələ yaşayıram Allaha kərim,
Körpələrin qığıltısın sevirəm.

Fəqət xoşbəxt olub indi cavanlar,
Şadlıq sarayları toy olan anlar.
Oynayır rəqs edir nə qədər canlar,
Baxdıqca fikirdən qəm boğur məni.

Mənim toyum oldu mal tövləsində,
Çalğısız oynadı bir neçə bəndə.
Gəlinlik otağı çadır pis gündə,
Di gəl onda xoşbəxt say sən bəndəni.

Kəntdə iki yaxşı saraylar tikdim,
Daimi yaşamaq qismət olmadı.
Qapımda nə qədər ağaclar əkdim,
Sahibsiz qaldıqca yandı qalmadı.

Böyük bir sovxozda hesabdar oldum,
İşlədim bir başa iyirmi altı il.
Orada yaşayıb yaşa da doldum,
Qəzaya düşəndə olmuşam əlil.

O illərdə işlər çox saxtalaşdı,
İşləmək həvəsi artıq qalmadı.
Yalan məhsul vermək aşdıqca daşdı,
Hesabdar işləmək həvəs olmadı.

Yollandım Bakıya işləmək üçün,
Qəbul oldum Bakıda da hesabdar.
Yevlaxdan Bakıya yükləndi köçün,
Yaşadığım evim oldu xeyli dar.

Ağzı bağlı qaldı kəntdə sarayım,
İş yeri tapmadım dönəm oraya.
Çətinliklə keçdi hər ilin-ayım,
Uzaqdan baxıram gözəl saraya.

Beləcə keçdikcə ömrüm gündəlik,
Nə edim hələlik işləməliyəm.
İşə getməyimlə oluram lələk,
Sanmayın qocalıb artıq dəliyəm.

Təqaüdüm azdır bəs etmir mənə,
Qurluşun qəribə adəti vardır.
Sadə adamlara belə ənənə,
Məmurlara geniş, sadəyə dardır.

Hesabdarlar heç vaxt məmur sayılmır,
Hesabdarın təqaüdü bir misqal.
Çətinlik yaradan hələ ayılmır,
Dinsən də söz keçmir qalırsan lap lal.

Belə çətinliyə dözmür ürəyim,
Nə edim zəmanə belə gəlibdir.
Gündəlik hələlik yavan çörəyim,
Qəmginlik qəlbimi tamam dəlibdir.

Çətinliklə yaşasam da hələlik,
Nə edim ki yaradıbdır Yaradan.
Artıq qocalmışam alıram çəlik,
Şair həqiqəti nə gizət, nə dan.

Geniş evlərimi qoymuşam kənddə.
Beton dar evlərdə yaşayıram mən.
Ağrılar gündəlik yaranır məndə,
Beton otaqlarda ağrıyır bədən.

Çünki rayonlarda yoxdur iş yeri,
Mən də işsiz qala bilmənəm indi
Rayonlara sahib şəhərin Meri,
Kimin hədi var ki söyləyib dindi.

Sovetlər dövriində yaşayırdıq biz,
Hamının var idi orda iş yeri.
Bir nəfər olmazdı orada işsiz.
İşləyirdi zənən, həmi də əri.

Aldığı məvacib az oisa belə,
Bəs edirdi hər şey ucuzca idi.
Bazar iqtisadiyatı gəldi bu elə.
Hər şey çətinləşdi gididən-gidi.

Sahibdir hər şeyə manapolyalar,
Almaq da. satmaq da onların işi.
Gəlib vətənimə Saşa, Kolyalar.
Həsrətlə anırıq olan keçmişi.

İki yüz kvadrat olan evlərim,
Qalıbdır kəndimdə hələlik də boş.
Belə yaşayıram Allaha kərim.
Havasız bu evdə oluram naxoş.

Bu kiçik betonlu olan evlərdə.
Məcburam qalıram burda hələlik.
Nifrət eyləyirəm olan namərdə,
İşə də gedirəm əlimdə çəlik.

Yetmiş səkkiz yaşı olan mən qoca.
Məcburam gedirəm hələ işimə.
Pullarım da yoxdur gedəm mən haca,
Qulluq eyləyirəm mən vərdişimə.

Döz ay qoca Nəriman, döz bu işlərə,
Nə edəsən axır əlacın nədir?
Yenə də döz olan bu vərdişlərə.
Dolananlar başçı, ya da ki, Sədir.

Nə edim hələlik belədir diinya.
Dözməlisən, dözməsən nə edəsən.
İndi çoxlarını aldadır Sonya,
Cənnət bir yer yoxdur ora gedəsən.



# RÜBAİLƏR

Sevgilim qaşların kamana bənzər,
Sevmək üçün məndə qalmayıb hünər.
Qocalmışam yaşım artıq keçibdir,
Dizlərimdən gedib cavanlıq, təpər.

* * *

İllər gəlib keçib bilməmişəm mən,
Kaş ki bu dünyaya gələm yenudən.
Onda səhvlərimi təkrar etmərəm,
Ömür gəlib keçir bilinmir nədən.

* * *

Ömür qocalsa da ürək cavandı,
Ürəyim yetirir hər olan andı.
Fəqət hərdən elə zəifləşir ki,
Elə bilirsən ki qəflət dayandı.

* * *

Nələrdən danışım, nələrdən deyim,
Məni yaşadıbdır halal əməyim.
Şükürlər hələlik yaşayıram mən
Bir də çoxlarına olub köməyim.

* * *

Gündəlik Tanrımdan mənəm çox razı,
Allahımdan olmamlşam narazı.
Az qalıb səksənə yaşım çatmağa,
Ölənəcək sevəcəyəm mən sazı.

* * *

Daimi çalınan saza vurğunam,
Gül çiçəklər açan yaza vurğunam.
Qəlbim cavanlardan qalmayıb geri,
Gozəlin etdiyi naza vurğunam.

* * *

Yaxının varsa da mötəbər yerdə,
Səni saymayanda düşürsən dərdə.
Saymayan yaxının kaş olmayaydı,
Möhtac olmayaydın daha namərdə.

* * *

Namərdin olmayır heç insanlığı,
O qədər qudurub yoxdur qılığı.
Zəhmətsiz var onu vəhşiləşdirib,
Vərdişə çöndərib o alçaqlığı.

* * *

Zəhmətlə yığsaydı o var-dövləti,
İnsanlığı unutmazdı heç qəti.
Çünki yığdığı var alın təridi,
Unuda bilməzdi olan zəhməti.

* * *

Zəhmətlə varlanan bilin insandı,
Heç zaman unutmaz içdiyi andı.
Elə ki zəhmətsiz varı topladı.
Tez dəyişdi insanlığı o dandı.

* * *

Dünya dəyişibdir, çətinləşibdir,
Zəhmətsiz var yığan xeyli şişibdir.
Gözü ayağının altını görmür.
Qudurğanlıq yamanca dəb düşübdür.

* * *

Harın hətta saymır yaxın qohumu,
Çeynəyir ağzında boranı tumu.
Vəhşiləşmək çoxalıbdır getdikcə,
Ona nifrət edir ağıllı hamı.

* * *

Saqqalılar çoxalıbdır Bakıda,
Onları saymayır gözəl Bakı da.
Pozulubdur burada neçə insan,
Səviyəsizlər çoxu ağır çəkidə.

* * *

Allahım, görürsən hər alçaqlığı,
Dalda küçələrdə olan palçığı.
Mərkəzi küçələr gözəlləşibdir,
Yaltaqların göstərdiyi qılığı.

* * *

Həqiqətsiz söylənilir yalanlar,
Xalqın var-dövləti olur talanlar.
Gözü ilə hər şeyi görsə belə,
Yenə yaltaqlanır yaltaqlananlar.

* * *

Söylə həqiqəti kişisən kişi,
Burax həqiqətsiz olan vərdişi.
Yalan danışmaqla heç də öyünmə,
Unutma indini, birdə keçmişi.

* * *

Şükür suverenik hər şeyimiz var,
Yalanlar söyləsək bizə olar ar.
Gözlərin nə görür düzünü söylə,
Düz sözlər qalacaq daim yadigar.

* * *

İllər gəlib keçir ömürdən illər,
Bir-birini əvəz edir fəsillər.
Bəzi fıravandı bəzi yalavac,
Belə yaşayıbdır neçə nəsillər.

* * *

Biri tüz tərpənib, çırpışdırıb var,
Biri dalda durub eyləyibdir ar.
Çırpışdıran sanmır xalqın malıdı,
Çünki səviyəsi tamam olub dar.

* * *

Gəl çox da özünü yorma Nəriman,
Hələki sağlamsan sağlam qalıb can.
Dünya vəfasızdı, vecinə alma,
Saxta dərmanlardı, içmə sən dərman.

* * *

Ədalı danışma ay şişkin insan,
Sən ki sakit doğulubsan anadan.
Ədalı dayanmaq yaxşı deyil bil,
Dediyim sözləri birdəfəlik qan.

* * *

Sanıram zəhmətsiz varla şişirsən,
Sifətdən sifətə gündə düşürsən.
Təsadüfu varı Tanrım veribdi,
Ona görə belə coşub daşırsan.

* * *

Nə bilirsən sabah olacaq nələr,
Başının üstünü alar kölgələr.
Bir anın içində müflüsləşərsən,
Onda qəlbin körpə quzutək mələr.

* * *

Heç zaman güvənmə dövlətə-vara,
Nə də ki biganə gəzmə avara.
Avaralıq insanlığa yaraşmır,
Avara vərdişə olmayır çara.

* * *

İnsansan insana insantək yanaş,
Heç zaman qudurma, nə də qəflət çaş.
Qudurğanlıq daim başa bəladır,
Bir də gördün qəflət başa düşdü daş.

* * *

Etibarsızlığı eyləmə yara,
Eyləsən qəlbinə vuracaq yara.
Onda o yaranı sağaltmaq olmur,
Xoşbəxtliyi alammasan dübara.

* * *

Fələyin gözündən düşmək çətindi,
Düşməsən bil onda sədaqətindi.
Özünü insan tək aparsan əgər,
İnsanlıq onda bil hər xoşbəxtindi.

* * *

Xoşbəxtliyi sənə versə Yaradan,
Ona güvən nə gizlətmə, nə də dan.
Yadda saxla sənə Xudam veribdi,
Tanrısını danan nadandı nadan.

* * *

Böyüksüz yaşamaq de nəyə gərək,
Böyüksüz yaşayan bir zəif ürək.
Böyüyün sözünə daim qulaq as,
Böyüksüz böyüyən tapammaz çörək.

* * *

Canı alacaqdır sənə verən can,
Heç zaman heç kimə olamaz güman.
Alnının yazısı pozulan deyil,
Ay insan sən bunu həmişəlik qan.

* * *

Nə qədər yaşasan eyləmə pislik,
Pislik eyləməsən başı saxla dik.
Pislikləri ancaq nadalar edir,
Belə davranışı sanırlar səfik.

* * *

Səfıklər dünyada hörmət qazanmaz,
Yaxşı ki dünyada səfıklər çox az.
Sayları çox olsa kimə gərəkdir,
Qananlar fikirdən olurlar nasaz.

* * *

Kaş ki yığaydılar yaramazları,
Əqili, şuuru olan azları.
Onda saflaşardı insan cəmiyyəti,
Zövq ilə çalardıq olan sazları,

* * *

Əliqqo pisliyi çıxar yadından,
Utan adın olan Əli adından.
Həzrət Əlinin adıdır  O ad,
Utan soyun olan o soyadından.

* * *

Güvənmə dövlətə, güvənmə vara,
Var verən özü də alar dübara.
Var-dövlət dediyin gəldi gedərdi,
Bir də gördün getdi oldun avara.

* * *

Ancaq kişiliyi unutma heç an,
İlk gün təmiz doğulubsan anadan.
Eylədiyin səhvlər başından yekə,
Boynuna al səhvlərini yaxşı qan.

* * *

Səhvı düzəltməyin vardır faydası,
Tez başa düşməyin vardır qaydası.
Etdiyin səhvləri başa düş düzəlt,
Düzəltməsən olmaz onun mənası.

* * *

Bəsdir söylədiyim ay nadan-naşı,
Daldada qoyursan cavanlıq yaşı.
Səhvı düzəltməsən beləcə qalsa,
Qocalsan dəyişmək olmaz yaddaşı.

* * *

Özün bil, bu sənə bir tövsüyəmdi,
Qocalsam da əqlim başımda cəmdi.
Əqlim atamdan qalıbdır yadigar,
İtirsəm o əqli onda matəmdi.

* * *

İnsan qocaldıqca xeyli kövrəlir,
Kövrəlmək insanın qəlbini dəlir,
Boylanır keçmişki cavanlığına.
Təsəlli tapdıqca qəlbi dincəlir.

* * *

Təəssüflənir niyə qocalmışam mən,
Kaş ki cavanlığım gələ yenidən.
Etdiyim səhvləri tez düzəldərəm,
Özüm də bilmirəm etmişəm nədən.

* * *

Bilmirdim qocalıq yaman olurmuş,
Qocaldığı gündən insan solurmuş.
Solmaq insanları taqətdən salır,
Taqətdən düşənin gözü dolurmuş.

* * *

Ay nadan o günü sən sal yadına,
Biqeyrətlik yaraşmayır adına.
Tənbəlləşib qeyrətsizlik qazanma,
Öz işini vermə heç vaxt qadına.

* * *

Nə qədər gücün var çalış gündəlik,
Boş-boş yatma evdə, olarsanləlik.
Eləki qocaldın yaş ötüb getdi,
Peşman olacaqsan onda üstəlik.

* * *

Təəssadüfü varlananda bilki sən,
Bir də gördün müflisləşdin yenidən.
Havayı xərcləmə yığdıqlarıı,
Özü alacaqdı o sənə verən.

* * *

Varlanmaq çaşdırır çox varlananı,
O hal düşündürür olan-qananı.
Qanan nifrət edir gic varlanana,
Heç nə şöhrət vermir o aldananı.

* * *

Çox da kədərlənmə Milli Nəriman,
Qeyrətli yaradıb səni Yaradan.
Qeyrətsiz olanın halına yanma,
Özünü çox qoru əldəikən can.

* * *

Gəldi gedər sayıb insanlar varı,
Varlananın çoxu olub "cır arı".
Varlananın yaxşı görmür gözləri,
Qudurur dündəlik dəyişir.

* * *

Yar da qudurani görüb yadlaşır
Yarı gəzən görüb o da tez çaşır.
Hər ikisi olur artıq səviyyəsiz,
Qudurmaq sonuncu həddini aşır.

* * *

Məhəbbət oyundur, bilin hər zaman,
Məhəbbət yaranır tanış olandan.
Sevinirsən məhəbbətin yaransa,
Məhəbbətsiz yaşaya bilməz insan.

* * *

Bilik bir silahdı, o məqsəd deyil,
Biliyin olanda qarşında əyil.
İnsanı yaşadır, hörmətli edir,
Biliyi çox qazan, onunla öyül.

* * *

Tənbəlliyi ürəyindən siləsən,
O yaxşı iş deyil, onu biləsən.
Tənbəllik insanı hörmətsiz edir,
Tənbəllərə nifrət edib güləsən.

* * *

Biliyi öyrənmək ar bilmə heç an,
Yaradıbdır insan kimi Yaradan.
Əgər insansansa öyrən hər şeyi,
Özünə nə ar bilmə, nə də ki utan.

* * *

Öyrədən insanın öyrənir özü,
Sözün söz gətirər, bilərsən sözü.
Tənbəllik eyləyib oxumadınsa,
Ayıra bilməzsən qumaşla bezi.

* * *

Zaman dəyişdikcə insan dəyişir,
Ara qarışdıranın başı əyişir.
Ağılsızlıq insanlığa yaraşmır,
Ağılsızlar şitənərək döyüşür.

* * *

Hərənin Allahı öz vicdanıdır,
Vicdan insanlığı yaxşı tanıdır.
Vicdanı olmayan qəpiyə dəyməz,
Vicdansızlar biqeyrətdi canidir.

* * *

Ədalətli insan insanpərvərdi,
Bax belə insanlar igitdi-nərdi.
İnsanpərvərliyi olmayan insan,
Farslar söyləyibdir qulaqlı xərdi.

* * *

Ədalət gözləmə şöhrətpərəsdən,
Özünü çox öyən beynişikəstdən.
Beyni şikəst insanlıqdan kənardı,
Ondan xeyir görməz heç zaman Vətən.

* * *

Kobudluq edənin ruhu zəifdi,
Əqili çürükdü, beyini kifdi.
Ondan heç vaxt insanlığı gözləmə,
Onun əqidəsi sönükdü, püfdü.

* * *

Qocalsa insanın ruhu çətindi,
Ruhu qocalanlar çoxludur indi.
Ədalətsizliyə düşdükcə insan,
Dərdləri çoxalır milyondu-mindi.

* * *

Sağlam bədənlərdə sağlam ruh olar,
Sağlam olmayanda saralıb-solar.
Fikirsiz yaşamaq xeyli çətindi,
Sağlam ruhu olan yaşa da dolar.

* * *

Ruhun boşluğudur darıxmaq hər an
Boşluq olan zaman xəstələnir can.
Çalış o boşluğu sən qəbul etmə,
Səni möhkəm yaradıbdır Yaradan.

* * *

Başqasını xoşbəxt eyləyən insan,
Özü isə bədbəxt olmaz heç zaman.
Yaxşılıq eyləyən insan insandı,
O ki doğulubdur insan anadan.

* * *

Yaxşı gülüş ruhu sağlamlaşdırır,
Gülmək istəməyən ruhu çaşdırır.
Gülməyin də bir məqamı var bilin,
Yaxşı gülmək qəlbi cavanlaşdırır.

* * *

Əsəri olmayan barsız ağaşdır,
Əsərsiz alimlər qaraca daşdır.
Dəyərli əsəri yazmayan alim,
Ya gözləri görmür, ya da ki çaşdır.

* * *

Bir yalandan başqa yalan doğulur,
Yalançılar axar çayda boğulur.
Eşidənlər inanmayır  bu sözə,
İnanmayan qaçıb ordan dağılır.

* * *

Vətənçün yaşamaq ölmək gərəkdir,
İnsanı yaşadan halal çörəkdir.
Vətəni sevməyən insan deyil ki,
O canlı sürünən, ya da böcəkdir.

* * *

Xalqını sevməyən başqanı sevməz,
Başqanı xalqına eyləmə əvəz.
Sev doğma xalqını, ana Vətəni,
Başqa ölkələrdə müvəqqəti gəz.

* * *

Kəskin dil vergidi, uzun dil cəza,
Cəzanı çəkdikcə ağrıyır əza.
Çalış çox danışma, yorma özünü,
Səhv edən ömrünü verir güdaza.

* * *

Dünya bir pəncərə, insan baxandı,
Çeşmə çaylar çağlayandı, axandı.
Qarabağın çaylarını görmürəm,
Həsrət məni yandırandı-yaxandı.

* * *

Mat qalmışam fələyin bu işinə,
Gedə bilməyirəm o keçmişinə.
Gedən günlərimi qaytarsaydılar,
Birini verərdim indi beşinə.

* * *

Keçən günlərimiz çox gözəl idi,
İndiki günləri bilmirəm nədi.
O qədər fikirli dözə bilmirəm,
Heyif gözəl günlər deyil əbədi.

* * *

Əbədi olsaydı xoş günlərimiz,
Onda dünyamız da olardı təmiz.
Xoşbəxt yaşayardı bütün insanlar,
O günlər olardı tamam əvəzsiz.

* * *

Sanma indi eünlərimiz xoş keçir,
Qəmli günlər olur tamam boş keçir,
Keçən günlərimiz ağır olanda,
Gözlər qəmginləşir içi yaç keçir.

* * *

Varlı göylə gedir, kasıb sürünür,
Sürünən insanlar zəif ərinir.
Yediyi qidalar əhəmiyyətsizdi,
Zəifləşib onda fağır görünür.

* * *

Varlı uyur gündə şana-şöhrətə,
Baxmaq da istəmir kasıb millətə.
Çünki var gözünü tamam tutubdu,
Başı qarışıbdır gündə sərvətə.

* * *

Çox sərvət də gərək deyil, insana,
Yaraşmayır harına-qudurğana.
Elə ki sərvəti həddini aşdı,
İnsanlara tamam olur bigana.

* * *

Biganəlik insana yaraşmayır,
Ağıllı insanlar heç vaxt çaşmayır.
Çaşıbsa insanlıq çıxıb yadından,
İnsan olan qudurmayır, aşmayır.

* * *

Vay o hala itirəsən insanlığı,
Qəbul eyləyəsən saxta qılığı.
Saxta qılıq uzaqdan da görünür,
Qəbul eyləməyin hər alçaqlığı.

* * *

Ağıllı adamlar yaxşı adamdı,
Deməli şuuru yerində tamdı.
Mərifət elmini yaxşı qavrayıb,
Onu dinləməli olan məqamdı.

* * *

Əgər danışmağı bacarmayırsa,
Onda sözlərini çox danış qısa.
Qocalıq çatanda lovğalanma sən,
Yaxşı yeriməkçün al ələ əsa.

* * *

Xeyirsiz yaşamaq vaxtsız ölümdü,
Mənasız yaşamaq xeyli zülümdü.
Belə yaşamağın yoxdur mənası,
İnsanı öyrətmək olan təlimdi.

* * *

Hər şeyə əlac var ölümdən başqa,
Əlacsız heç nə yox zülümdən başqa.
Nəyə gərək zülüm ilə yaşamaq,
Elsiz yaşamaram elimnən başqa.

* * *

Fikirlər köçəri quşlara bənzər,
Onu tezcə tutmaq böyük bir hünər.
Əlacın olmasa, tuta bilməzsən,
O səndə daimi fikirə dönər.

* * *

İşin az olanda çox danışırsan,
Özün də bilmirsən nəyi anırsan.
Dəyərsiz sözləri çox danışanda,
Səhv söz söyləyəndə onda yanırsan.

* * *

Namuslu adamlar paxıllıq etmir,
Onlar heç bir zaman səhv yola getmir.
Belə adamların yoxdur qiyməti,
İstidə əkilən ağaclar bitmir.

* * *

Həyat yoldaşınız məşuqə deyil,
Yaxın dostumuzdu onu yaxşı bil.
Qocalana kimi sevmək gərəkdi,
O sənə əyilir sən də ki əyil.

* * *

Hasar da sevgiyə mane olammaz,
Məhəbbət heç zaman olammaz çox az.
Həqiqi məhəbbət əbədidir bil,
Sanki çalmaq üçün o sədəfli saz.

* * *

Alimlər durmadan oxuyanlardı,
Oxumayan insanlar ölü canlardı.
Savadsız yaşayan ay yazıq insan,
Sonra başa düşüb utananlardı.

* * *

Səbir etməyini bacarsan əgər,
İstədiyinə nail olarsan betər.
Səviyəsiz olub özündən çıxma,
Yaxşı dolanmaqla ömürün bitər.

* * *

Əkmək becərməkdən çətin deyildir,
Əkib becərmisən sən əgər bildir.
Onda məhsulunu yaxşı yığarsan,
Onda bilərsən ki məhsullu ildir.

* * *

Var-dövlət dost deyil, dost var-dövlətdir,
Yaxşı dost insançün yaxşı sərvətdir.
Yaxşı olmayanın yoxdur mənası,
Xain çıxanları sənə töhmətdir.

* * *

Ata olmaq asandı, atalıq çətin,
Olan övladların varın-dövlətin.
Övlad şüursuzsa töhmətdir sənə,
Şuurlu olarsa sən sərvətin.

* * *

Köhnə paltar kimi yalan çütüyür,
Gün düşsə buz üstə dərhal əriyir.
Yalan da dəyməmiş meyvə kimidir,
Nə yerində durur, nə də yeriyir.

* * *

Rüşvət nədir onu alandan soruş,
Alandan və cibi dolandan soruc.
Kasıb nə bilirki nədir o rüşvət,
Təkcə öz qeydinə qalandan soruş..

* * *

Sən ey qoç olmamış buynuz çıxaran!
Axı qoç olmağa yaraşır haran?
Qoç olmağın özünün də şərti var,
Nə saçını yu, nə də ki daran.

* * *

Söydün söyəcəklər onu yaxşı bil,
Döydün döyəcəklər ha, gözünü sil.
Nə döy nə də söyül ağıllı insan,
Nə əymə heç kimi, nə də ki əyil.

* * *

Pisliyin axırı heç xeyir verməz,
Əgər inanmırsan get dünyanı gəz.
Elə ki eylədin təsadüf pislik,
Dərhal olacaqdır ona bir əvəz.

* * *

Öyrədirlər öyrənir insan,
Təmiz pak doğulub ilk gün anadan.
Beyni ağ kağızdı, yazmaq lazımdır,
Öyrət övladını, sənə desin can.

* * *

Şöhrətpərəst adam yararsız bilin,
Adını batırar böyük bir elin.
Onun dostluğu da qəpiyə dəyməz,
Lüğətdən onların adını silin.

* * *

Ədəbiyyat ruhların dərmanıdı bil,
Ondan xəbərsizlər yaşayır səfil.
Gündə mütaliyyə eyləməyəni,
Tənbəldi onları beyinindən sil.

* * *

Poeziya insançün daim həyatdı,
Ona bərabər də bil kainatdı.
Onlardan xəbəri olmayanların,
Beyini çürükdü, zehini çatdı.

* * *

Şair öz qəlbinin əksi-sədası,
Poeziyasız qəlbin olur çox yası.
Şeri-poeziyanı anlamayan kəs,
Götürə biləmməz qəlbindən pası.

* * *

Satira müasir olarsa əgər,
İstədiyi qədər o xeyir verər..
Mənasız olanda nəyə gərəkdi,
Doğru yazılarsa o işin görər.

* * *

Hər şeyə qadirdir gözəl dilimiz,
Onu yaxşı öyrənməli elimiz.
Dilin yoxsa özün də yoxsan demək,
Doğru həqiqəti demək yolumuz.

* * *

İş tapmayan insan bədbəxt adamdı,
İşləyən adamlar bütövdü tamdı.
Veyil-veyil gəzən acından ölər,
İşi olmayanlar yanmayan şamdı.

* * *

Qənaət eyləmək vardı-dövlətdi,
Qırıq-qırıq yığmaq böyük sərvətdi.
Yığdığın sərvəti bərk xərcləyəndə,
Başına qaxıncdı həm də töhmətdi.

* * *

Paxıl adam heç vaxt varlana bilməz,
Sözlərimi sına get dünyanı gəz.
Paxıllq insanda pis xasiyyətdir,
Paxıla tapılmaz heç zaman əvəz.

* * *

Şöhrət əbədidir, ömürsə qısa,
Şöhrətin itərsə batarsan yasa.
Ömür keçib gedir vaxtın qurtarır,
Təəssüflənib ələ alırsan əsa.

* * *

Məni ucuz tutdun bilmədim nədən,
Artıq qocalmışam, başa düşüb dən.
Mənim insanlığım daimi qalıb,
Sənə iradımı tutdum yenidən.

* * *

Belə işlər olmaz ay İlyas ağa,
Səninlə bir dəfə getmədik dağa.
Allahın verdiyi sənə bir vardı,
Mənsiz də heç zaman getmə yaylağa.

* * *

Sən biznes sahibi, mən şair baba,
Böyük mühasibəm al sən hesaba.
Müdürlük edirəm, həm də hesabdar,
Elə işlər gör ki, deyim mərhəba.

* * *

Ayların son günü başa gələndə,
Maaşımı tez ver ay müdür bəndə.
Gecikdirib məni çox incidirsən,
Küsürəm, elə də getmirəm kəndə.

* * *

Gəl başa düş heç vaxt incitmə məni,
Şairəm sevirəm ana Vətəni.
Soyuq bir insana bənzətmə heç an
Yadından çıxartma şair deyəni.

* * *

Çox da varlanmısan, varın var deyə,
Çönmə heç bir zaman soyuq bir bəyə.
Nə bilirsən öndə nələr olacaq,
Yaxşı qiymətlər ver yaxşı əməyə.

* * *

Zəhmətkeş insanam, zəhmət çəkirəm,
Zəhmətə qatlaşıb belim bükürəm.
Dövran tələb edir dolanmaq üçün,
Qiymət verilməsə onda çökürəm.

* * *

Verirsən bir ayda bircə məvacib,
Az bir məvacibdir dolmur onda cib.
Onu da vaxtında vermirsən dərhal,
O ki mənim üçün yerində vacib.

* * *

Qoy olsun halalım öz əməyimdi,
Mənimtək zəhmətkeş milyondu-mindi.
Zəhmətkeşin qədirini bilməyən,
Ya o müqəvvadı, ya da ki "cindi"

* * *

Sayma sən özünü məndən ağıllı,
Mənim də ağlım var, o sənə bəllı.
Ağılım özümə yaxşı bəs edir,
O da mənə olub daim təsəlli.

* * *

Məni sayma qoyun, salırsan oda,
Sahib oldum daim kişilik ada.
Səbəbkar səbəbi varlanmısan sən,
Hikkəlik göstərmə yaxınna-yada.

* * *

O qabalıq nəyə lazım ay insan,
Təsadüfi varlanmısan, onu qan.
Varı verən Tanrı görəndə səni,
Tez əlindən alar, əziyyət çəkər can.

* * *

Səndən çox üstünəm, kasıb olsam da,
Ağıla-kamala nəsib, olsam da.
Allahım çox sevir, yaşadır məni,
Yaxınlarım ilə küsmüş olsam da.

* * *

Kasıbsan, insandan zirvədə duran!
Məni qorxutmayır nə çiskin-boran.
Yoxsulluq qismətdir, Xudadan gəlir,
Məni saxlayacaq müqəddəs Quran.

* * *

Mən şair babayam, öz aləmim var,
O xasiyyət atamdan qalıb yadigar.
Tərgidən deyiləm ölənə kimi,
Elə iş görmürəm sonra edəm ar.

* * *

Arsızlar nə bilir nədir insanlıq,
Özünü itirir hər vaxt, hər anlıq.
Bilmir beş qəpiyə dəyəsi deyil,
Anlamır yaxşılıq, nə də yamanlıq.

* * *

Çox da güvənmə ki, sahibsən vara,
Xalqının içində üzündür qara.
Bir də gördün varın əldən gedibdir,
Tanrı üz döndərib, vermir dübara.

* * *

Odur ki, ağıllı sayma özünü,
Havayı danışma, azalt sözünü.
Dediyin sözlərin mənası yoxdur,
Heç də fırlatma əyri gözünü.

* * *

Havayı şişirsən bir vaxt gələcək,
Havadarın qocalacaq, öləcək.
Onda vay halına ay şişkin bəndə,
Güldüyün adamlar sənə güləcək.

* * *

Deyirsən ki gəzmək yaraşmır sənə,
Neçə dəfə dedin sən dönə-dönə.
Niyə ki, yaraşmır mənə ay Rəhim!
Yaxşı deyil, onu söyləmə yenə.

* * *

Hələ ürəyimdə gənclik təbi var,
O məndə qalacaq daim yadigar.
Sən də ki, özünü çox sayma cavan,
Üzündə qocalıq cizgiləri var.

* * *

Vurmaq istəyirsən vurum səninlə,
Durmaq istəyirsən durum səninlə.
Çox da ki gözünə dəyir qocalıq,
İsdədiklərini görüm səninlə.

* * *

Sən də mənim kimi qocalacaqsan,
Nə bilirsən mən tək ucalacaqsan.
Dünyanın işini bilmək çətindi,
Sanma bundan sonra saz çalacaqsan.

* * *

Sazın da vədəsi keçib əzəldən,
Saz çalmadım əl çəkmədim gözəldən.
Bu xasiyyət səndə əbədi qalıb,
Onu buraxmırsan heç zaman əldən.

* * *

Faydası yox mən də sevdim gözəllər,
İndisə başımdan düşür xəzəllər,
O sevgidən qalmayıb bir nişanə,
İndi mənə uzanmayır o əllər.

* * *

Yadına salmırsan qocalmaqları,
Yığmaq istəyirsən dövləti-varı.
Faydası yox dövlətin də, varın da,
Əli boş gedirsən məzara sarı.

* * *

Orda kimə lazım varın-dövlətin,
Getdin ordan çıxmaq çətindir-çətin.
Onu yaddaşımdan silməmşəm mən,
Xeyirxaxlıq eylə dayan sən mətin.

* * *

Bir yaxşılıq qalacaqdır dünyada,
Yaxşılığı sevir hər vaxt dünya da.
Pisliyi eyləyən yaxşılıq görməz,
Sözümü həkkeylə yaddaşa-yada.

* * *

Bəsdir söylədiyim Rəhim müəllim,
Ürəyimi boşaltdım, oldu təsəllim.
Sözü söyləyəndə fıkirləş söylə,
Bilinki yaşımdan qalıbdır əllim.

* * *

Ay yerindən bəla, ay Əlibala,
Artıq qocalırsan sən bala-bala.
Nalayıq sözləri bir də danışma,
Xoşa gəlməz sözü gizlət, daldala.

* * *

Mən də söyləyərdim sən tək hər sözü,
Gözəl gözəllərə qıyardım gözü,
Elə bilirdim ki cavan qalacam,
Onu başa saldı canımın özü.

* * *

Faydası yox hər gözələ söz demə,
Tələsərək hər birinə tez demə.
Ağzında çox bişir dediyin sözü,
Yaxşı çeynənməyən çörəyi yemə.

* * *

Hər keçən gözələ sən söz atırsan,
Onun ilə görən nəyə çatırsan.
Bir də görürəm ki oturan yerdə,
Fısıldayıb şirin-şirin yatırsan.

* * *

Belə yatmağın da yoxdur mənası,
Yatmağın da vardır ayrı qaydası.
Yatmaq istəyirsən get yerində yat,
Bir də şirin olur ana laylası.

* * *

Heyif tez itirdin ananı sən də,
Mən də itirmişəm getmirəm kəndə.
Olmadığı üçün gedə bilmirəm,
Anamın sifəti həmişə məndə.

* * *

Xoşbəxtdi hər zaman hər analılar,
Anası olanın başına yağmır qar.
Analar tez getsə bu çox dəhşətdi,
Ananın yerini verməz heç bir yar.

* * *

Yarın öz yeri var, ana əzizdi,
Müqəddəsdi, qəlbi tamam təmizdi.
Ananın yerini heç kim verəmməz,
Sevgilin bir göldü, ana dənizdi.

* * *

O dənizi heç kim quruda bilməz,
Heç kim anaları eyləməz əvəz.
Laylası əbədi qalır qulaqda,
Onun əvəzi yox, get dünyanı gəz.

* * *

Qulağını yaxşı aç, ay Əlibala,
Kitabımı oxuyan tez gələr hala.
Oxu kitabları gör nə yazmışam,
Oxucudan heç vaxt qalma sən dala.

* * *

Sən ki gələndə dünyaya Rəşad,
Gəldin sən qazandın ailədə rəş ad.
Belə yaşamağın yoxdur mənası,
Sənə nə lazımdır belə səfik ad.

* * *

Rəş qara deməkdir, kürdün dilində,
Xoşuna gəlməyir hər bir elin də.
Atana-anana göz dağı oldun,
Gündəlik qalmısan töhmət əlində.

* * *

Kişi gərək kişi kimi yaşasın,
El içində yaxşı adı daşısın.
Nəinki daşısın gündəlik töhmət,
Ata-anasının qəlbin qaçısın.

* * *

Belə övladlığın yoxdur mənası,
Qənim gələr sənə ana laylası.
Hörməti olmasa elin içində,
Ürəyin tutacaq çirkli bir pası.

* * *

Elə yaranışdan gəlmədin xoşa,
Nənənin ayağın dirədin daşa.
Böyütdü zəhmətlə səni gündəlik,
Sonra kinayəylə etdi tamaşa.

* * *

Nanəcib qardaşın qoşuldu sənə,
Qulaq asdın ona,onun deyənə.
İkiniz də oldunuz baş qaxıncı,
Təkrar eylədiniz səhvləri yenə.

* * *

Ən töhmətli işdir həmin o işlər,
O işlər sizlərdə oldu vərdişlər,
O iş arvadı da uduza bilər,
Yaxud ağızlarda qalmadı dişlər.

* * *

Töhmət etdim, anlamadın heç zaman,
Düzəlməyə qalmadı səndə güman.
Bu səffeh vərdişi sən doğru sandın,
Qanmadın, olmadın heç də utanan.

* * *

Sən daşıdın utanmayan sifəti,
Qardaşınla düəlmədiniz qəti.
Elə bildiniz ki onla var olar,
Kişi zəhmət ilə yığar sərvəti.

* * *

Uduzar arvadı qumarbaz bir an,
Belə bir cəzanı verir Yaradan.
Bu vərdişdən əl çəkiniz yazıqlar,
Məhv olur axırda onu yaxşı qan.

* * *

Yandırma sevgilim, yanan könlümü,
Nalayıq sözləri danan könlümü.
Təsadüf qəlbinə dəyərsə əgər,
Peşmanlıqla tez utanan könlümü.

* * *

Ürək sevib səni sevməkdə yenə,
Sevə bilməz sevgidən tez dönənə.
Sevib sevəcəkdir səni sevənin,
Sevgimiz səninlə birgə Vətənə.

* * *

Sevəcəm əbədi ölənə kimi,
Bu sevgi daimi qəlbimin himi.
Heç kimin çatammaz gücü döndərə,
Daim çalınacaq qəlbimin simi.

* * *

Əzizim, soltanım, ay canım, gözüm,
Sənə ömrüm boyu can olub sözüm.
Bu xasiyyət məndə qalar əbədi,
Onu hiss edirəm hər zaman özüm.

* * *

Məni yalqız qoyub getmə kəndimə,
Getsən rast gələrəm yanıqlı simə.
Aralı dolanmaq vaxtı deyildi,
Sözlərimi sənsiz söyləyim kimə?

* * *

Söhbətsiz yaşamaq çox çətinləşir,
Baxıram yollara gözlərim şişir.
Qocalmışam deyə çox kövrəlmişəm,
Sanki ürək qopub yerindən düşür.

* * *

Bu sevgi əbədi qalacaq belə,
Onu heç bir zaman verməməm yelə.
Ürək yaşadıqca o yaşayacaq,
Şükürki yaşayır hələlik hələ.

* * *

Razıyam Allahın bu gərdişindən,
Əl çəkmənəm kişilik vərdişindən.
Yaxşılıq eyləmək çıxmır yadımdan,
Hələ qalmamışam işlək işindən.

* * *

Az qalıbdır yaşım çata səksənə,
Ürəyim tapşırır ağac əksənə!
Hələ də özümü gümrah snıram,
Şükürlər Allaha belə bir günə.

* * *

Zövcəm gedib kəndə darıxıram mən,
Dözə bilməyirəm, bilmirəm nədən.
Zövcəsiz yaşamaq qismət olmasın,
Yaşaya biləmməz onsuz bu bədən.

* * *

Sağ ol indiyədək yaşatmısan sən,
Təvəqqə edirəm yaşat sən həmən.
Ehtibarsız olmayasan Ürəyim,
Narazı deyilsən heç zaman məndən.

* * *

İncidən olmadım heç zaman səni,
Eşitmədim hər nanəcib deyəni.
Səni saxlamışam dərdsiz-kədərsiz,
Sənin tək sevirəm ana Vətəni.

* * *

Doğrudur ki yaşım yetmişi keçib,
Dağlar bulağından sərin su içib.
Cənnətdir hər yeri bizim dağların,
Xalqımız dağların yaxşısın seçib.

* * *

Heyifki Vedimin dağları qalıb,
Eşitmişəm həsrətimdən qocalıb.
Kaş ki eşidəydim vətən nərləri,
Xain ermənidən yaxşı bac alıb.

* * *

Vətənim Vedidə o ulu dağlar,
Milli dərəsində meyvəli bağlar.
Sanıram həsrətdən kədərlənibdir,
Dağlarım bizləri görməyir, ağlar.

* * *

Necə ağlamasın Vətənim olub,
Düşmən zəbt etdikcə saralıb-solub.
Həsrətlə gözləyir getməyimizi,
Qaralıb bütüncə bulud tək dolub.

* * *

Ona görə həsrət çəkirsən Ürək,
Məni incitməyin de nəyə gərək.
Çox da kədərlənmə vaxt gələcəkdir,
Erməni çıxacaq altında xərək.

* * *

Ulu babalardan qalan Vətəndi,
Azəri dilində hər oba kəndi.
Toponimlərini dəyişib yağı,
Öz dilində yazıb hər bərə-bəndi.

* * *

Əgər əmr etsə Baş Komandanım,
Birləşsə bir yerdə bütün dörd-yanım.
Onda ermənin in işi bitəcək,
Birləşsin igidim, hər bir aslanım.

* * *

Marş irəli söyləyəndə Komandan,
Geridə qalmasin bir nəfər insan.
İgidlər birləşib bir vuruşanda,
Qalib gələcəklər, sən mənə inan.

* * *

Yaralı qəlbimi gəl tərpətmə yar,
Orada nə qədər neştər yeri var.
Vedim Xocalım tək getdiyi gündən,
Həsrət ürəyimdə qalıb yadigar.

* * *

Vedim gedən gündən dözdüm bir
təhər, Xocalı gedəndə boğdu tez qəhər.
Qarabağım yad əllərdə qaldıqca,
Məni sakit qoymur qəlbimdə təpər.

* * *

Dözə bilmir heç də kişi qeyrətim,
Kəlbəcərdən dağıdılır sərvətim.
O murdar erməni yığıb aparır,
Boylanır uzaqdan olan millətim.

* * *

Mən də aldanıram gəlib gedənə,
Onlar gəlib şərab vurur bədənə.
Nə vecinə məvacibini alır,
Bir qəpik xeyiri çatmır Vətənə.

* * *

Arxeyin oluruq hər quru sözə,
Yalan söz deyirlər gələndə təzə.
Biz də inanırıq o gələnlərə,
Xalqım yalanlara nə qədər dözə?

* * *

Deyilən yalanlar iyirmi bir ildir,
Saymayın ki olub bu il ya bildir.
İyirmi bir ildir gözləyirik biz,
Gündə Qarabağdan gələn əlildir.

* * *

Əlillər də dözmür danışır gündə,
İnanmırlar yaxşı olacaq öndə.
Döyüşmək istəyir olsa da əlil,
Qorxmayırlar onlar qocalmış sində.

* * *

Beləcə dayanıb gözləyirik biz,
Hələki səbr edir lap səbrimiz.
Səbrimiz dözməsə silahlanacaq,
Qarabağı alacaqdır tərtəmiz.

* * *

Gözləyir igidlər, gözləyir hələ,
Bəlkə düşmənimiz insafa gələ.
Rusun şinelindən çıxarsa əgər,
Onlara qurarıq yaxşı bir tələ.

* * *

Tələni açammaz o gic erməni,
Doğru söz deyirəm eşit sən məni.
Rusun səbəbinə elə qudurur,
Eşit həqiqəti, şair deyəni.

* * *

Özü söylədi ki, gedək sizə biz,
Ürəkdən söylədi onu tər-təmiz.
Yadından çıxıbdır həmin yalvarış,
Artıq başqasıyla gəzir səviyyəsiz.

* * *

Söyləyir yarım var, sən uzaq dolan,
Həqiqi sözüdür, deyildi yalan.
Çox da ki cavantək dolandım sənlə,
Səndən başqa varıydı neçə qalan.

* * *

Belə səviyyəsiz olan insanı,
Olmayıbdır heç vaxt onun vicdanı.
Dolanır cavantək olan ağılla,
Xəstədir ürəyi, zəhərdi qanı.

* * *

Gəl qoşulma ona, heç zaman, heç an,
Onunla gəzdiyin günləri də dan,
Təəssüf ki bu qədər tanımamışam,
Nə özünü yorma, nə də ona yan.

* * *

Həyasızdır onun utanmaz üzü,
Yalandı, böhtandı hər olan sözü.
Elə yalanları uydurur ki o,
Axırda sözünə inanmır özü.

* * *

Səhvini deyəndə gülür o arsız,
Heç zaman olmayıb yalqız və yarsız.
Yalqız dolanmağı sevməyir ki O,
Nə qədər dolansa qalıbdır barsız.

* * *

Barsızlıq da düşündürmür heç onu,
Barsız da qalacaq ta ömrü sonu.
Cavanlıqda nadanlığı aldadıb,
Gündə dəyişdirib qoftanı-donu.

* * *

Qofta don xəstəsi olduğu üçün,
Bilməyib cavanlıq yükləyib köçün.
Başa düşüb artıq bar verə bilməz,
Ha danla ay yazıq ürəyin için.

* * *

Qəlbinur, qəlbinin nurluğunu mən,
Görəcəm ki zövcəm görsə yenidən.
Artıq korlanıbdır o ala gözlər,
Ümüdlüyəm onu açacaqsan sən.

* * *

Gətirəndə yaxşı bax sən gözlərə,
Müalicə eylə versin yaxşı səmərə.
Dostumun əmisi oğlu olsan da,
Səmərəsiz olsa görərsən nərə.

* * *

Səni sevməyəcəm onda ay Paşa,
Yazacağam töhmətə eylə tamaşa.
Zarafat etmirəm həqiqətdi bu,
Yaxşı işlər gör ki, səni min yaşa.

* * *

Mən şair babayam, eloğluyam mən,
Kaş ki əmin Əli gələ yenidən.
Tanış eyləyəydi o böyük insan,
Bir də tanıyırdı İsmayıl dədən.

* * *

Gözəl insan idi Musayev Əli,
Dost olduq Yevlağa birgə gələli.
Bir evli olmuşduq Əziz, Əliylə,
Həm də kirvələşdik onlarla bəli.

* * *

Kor olsun fələyin görən gözləri,
Apardı, həsrətəm illərdən bəri.
O gözəl insanlar vaxtsız getdilər,
Qaldılar atasız neçə nəfəri.

* * *

İndi bilin Paşa, kiməm, nəçiyəm,
Mən şair babayam bilməki çiyəm.
Müalicə eylə bizim zövcəni.
Yaxşı pinə vuran bir "pinəçiyəm".

* * *

Qələmim itidir, beynim onun tək,
Mənimtək yazarlar yaranır tək-tək.
Həqiqi sözümdür sizə deyirəm,
Yazıram nə varsa doğru, həm gerçək.

* * *

Eşit sözlərimi Qəlbinur Paşa,
Mən ikicə əlli, sənsə yüz yaşa.
Müalicəni düzgün eyləməsən sən,
Sözlər yazacağam eylə tamaşa.

* * *

Ay nanəcib səni dosta sayırdım,
Bu dostluğu hər bir yerə yayırdım.
Bilməyirdim dostluğunuz saxtadı,
Başa düşdüm o dostluğu ayırdım.

* * *

Atalar deyibdi, dostun tən gərək,
Səninlə yeməli o halal çörək.
Üzdə dost, daldada başqalaşanda,
Demək o insanda saxtadı ürək.

* * *

Bir zaman olanda varım-dövlətim,
Sənə qulluq eyləyirdi qeyrətim.
Deyirdim ki dostum əziyyət çəkməsin,
Pay olurdu sənə xeyli sərvətim.

* * *

Kürd oğlusan çoxlarını unutdun,
Özünə oxşayan dostları tutdun.
İnsanlığın demə çox cılız imiş,
Birgə yediyimiz çörəyi atdın.

* * *

Gəlirdim Bakıya, edirdim hörmət,
Gah toyuq gətirir, gah da şaqqa ət.
Onlar da yadından çıxıbdır artıq,
Söz ardı deyirəm, etmirəm töhmət.

* * *

Aşığın nisyəsi, kürdün ilqarı,
Ələsgər sözünü eşidəydin barı.
Söyləyibki hər ikisi düz deyil,
Qalaydı başında söz yadigarı..

* * *

Çox sözlər deyərdim, bəs olar məncə,
Gobut da demədim, söylədim incə.
Yaxın qohumluğu ata bilmirəm,
Səhvi unutmam, ta mən ölüncə.

* * *

Necə unudasan, o mümkün deyil,
Gobut səhvlər etdin, onu yaxşı bil.
Əlli illik dostu yaddan çıxartdın,
Tutdun başqaları bir neçə səfil.

* * *

Yenə də gündəlik səhvlər edirsən,
Xoşa gəlməz yollar ilə gedirsən.
Qocaldıqca ağlın tamam azalır,
Ancaq öz nəfini yaxşı güdürsən.

* * *

Nəriman Əyyubam, bəsri dediyim,
Heyif sənin ilə çörək yediyim.
Eybi yox o günlər uzaqda qaldı,
Unudulsun onda nələr etdiyim.

* * *

Var-dövlət çoxunu vəhşibşdirib,
Varı çoxaldıqca qarnı şişirdib.
Başa düşmür dövlət gəldi-gedərdi,
Getsə dərhal onu tuz əyişdirir.

* * *

Taleyin dəyişib olubdur harın,
Elə qudurubdur saymir öz yarın.
Başqa məşuqəyə alıb ev-maşın,
Evdə itiribdir tam etibarın.

* * *

Yarı da saymayır onu gizlicə,
O da özünü satır yaramaz bicə.
Heyifini alır pozulmuş ərdən,
Axı necə dözsün bu yazıq necə?

* * *

Unudur evdəki uşaqlarını,
Saxlayır kənarda neçə harını.
O harın zövcələr harınlaşaraq,
Dağıdır harının bütün varını.

* * *

Oğlu nəşə çəkir, qızı siqarı,
Xəlvət xərcləyirlər nə qədər varı.
Ata öz kefində olduğu zaman,
Övladlar da tapır xəlvətcə yarı.

* * *

Beləcə pozulur nizam tərəzi,
Başa düş oxucum sözün qərəzi.
Ailədə pozulsa nizam-intizam,
Hərənin olacaq ayrı mərəzi.

* * *

Hər evdə kişinin hökmü olmalı,
Evin hər işindən olmalı halı.
Başı qarışarsa başqa işlərə,
Axırda da başı olar bəlalı.

* * *

Ailə də dövlətdir, onun başçısı,
Olmalıdır hökmü, iti qayçısı.
Sözünü kəsərli deyə bilməsə,
Yarıtmaz aşbazı, nə də çayçısı.

* * *

Ata ayağına qalxmalı hamı,
Bircə nəfər kimi evin adamı.
Belə sayılarsa evin başçısı,
Ailədə bilinər hər şeyin tamı.

* * *

Mən belə bilirəm biln insanlar,
Eşidin olmayın siz ölücanlar.
Atanın, ananın hörməti böyük,
Ağıllı insanlar məni tez anlar.

* * *

Uyma bu dünyada şöhrətə-ada,
Qohumu tullayıb qısılma yada.
Nə qədər pis olsa qohum qohumdu,
Qohum pis olammaz bizim dünyada.

* * *

Artıq çörəyin var ver qohumlara,
Qohumla qohumun yaxında ara.
Yad yamaqdı, onu deyib atalar,
Nəyin varsa ver qohuma dübara.

* * *

Bəzi qohumlar var buzdan soyuqdur,
Elə bil bostana baxan oyuqdur.
Qohumu qohumtək sevməyən insan,
Yumurta verməyən zəif toyuqdur.

* * *

Yaman dəyişibdir zəmanə indi,
Qalıbdır insanlar gümana indi.
İş yerləri yoxdur hamı boş gəzir,
Olubdur çoxları divanə indi.

* * *

Heç zaman güvənmə adi bir ada,
Ölüm haqdı onu daim sal yada.
Yaxşı yaşamaq da əbədi deyil,
Bir də gördün dağılıbdır dünya da.

* * *

Gah bombalar qırır, gah sel aparır,
İldrım sıldırım qaya qoparır.
Təbiət hökmünü verən zamanlar,
Qaya parçalanır dağları yarır.

* * *

Ömür müvəqqəti, yaş müvəqqəti,
Onları yadından çıxarma qəti.
Bu dünyada heç nə əbədi deyil,
Saxlaya bilməzsən olan şöhrəti.

* * *

Bir də gördün şöhrət getdi bir anda,
Dəyişdi zəmanə, olan divan da.
Onda vay halına səbəbkarlı sən,
Fikirdən xəstəhal olacaq can da.

* * *

Odur ki güvənmə heç nəyə insan,
İnsan kimi doğulubsan anadan.
Yaşamağın qədirini yaxşı bil,
Nə qədər ki sağlam gəzir şirin can.

* * *

Can ki, əldən getdi, çətindi bir də,
Gəlməz cavanlığın, döz olan dərdə.
Ha özünü öldür, gəlməz cavanlıq,
Güvənmə namərdə, güvən sən mərdə.

* * *

Saxla hörmətini, saxla hər zaman,
Başqa hörmətini nə gizlət, nə dan,
El içində yaxşı dolan, yaxşı gəz,
Qoru bədənini sağlam qalsın can.

* * *

Vaxt gəlib dolanır, bilmirsən qəti,
İtirirsən müvəqqəti şöhrəti.
Şəxsiyyətini yaxş qoru durmadan,
Bir də ki, unutma heç vaxt mənfəəti.

* * *

Mənfəət Allahın bir vergisidir,
Onu heç kim bilmir o gizlicə sirr.
Bir də gördün Allah bir anda verdi,
Onu yaxşı saxla, sən eylə səbir.

* * *

Səbirli olmaq da Allah vergisi,
Yaxşı bar götürmək məhsul sərgisi.
Bol məhsul da qismətinə düşərsə,
Güvənib incitmə onda heç kəsi.

* * *

Zəmanə dəyişib, ay yazıq canım,
Yaxşı yaşamaqçün yoxdur imkanım.
Altmış ildir bircə günüm boş deyil,
İndi yoxsulluqla keçir hər anım.

* * *

Artıq bəs etməyir bir məvacibim,
Təqaüdüm azdır boş qalır cibim.
Üzü qara olsun bu zəmanənin,
Pulsuz müalicə etmir təbibim.

* * *

Təbib də nə etsin maaş az alır,
Fikirlərdən o da tezcə qocalır.
Məcburən havayı müalicə etmir,
Bu hal hamını dərdlərə salır.

* * *

Necə dərd çəkməyək, hər şey bahadı,
Boşca söylənilir azadlıq adı.
Sahibdir hər şeyə manapolyalar,
Sıxırlar daimi hər istedadı.

* * *

İstedad neyləsin, imkanı yoxdur,
İşləyəni azdır, yeyəni çoxdur.
Yoxdur mağazası, yaxud marketi,
Səbəbkarı olan varlıdır, toxdur.

* * *

Hamının da olmaz bir səbəbkarı,
Səbəbkarı olan yarıdan yarı.
Qalan insanlar da kasıb yaşayır
Yox dur nə dövləti, nə də ki varı.

* * *

Dünya vəfasızdır bilmirdinmi sən,
Ona-buna sataşırdın yenidən.
Keçən il bu zaman hökm edirdin,
Vaqifin saçına gündə saldın dən.

* * *

Budur Vaqif durur sən yoxsan indi,
Pislik eylədiyin hamı sevindi,
Sataşırdın neçəsinə günahsız,
Sataşdıqların da indi çox dindi.

* * *

Haq olan ölümə inanmırdın sən,
Bilmək olmayırdı o hikkə nədən.
Gözünün önündə öldü neçəsi,
Onları yadına salmadın hərdən.

* * *

Kafirlik etdikcə kifayətləndin,
Çıxmışdı yadından hər oba, kəndin.
Deyirdın hər şeyi yaxşı bilirəm,
Gördün ömür getdi artıq tükəndin.

* * *

Bunları əvəldən bilmirdin niyə,
Heç kimə vermədin bircə hədiyə.
Pisliklə keçirtdin daim ömrünü,
Qoşuldun bir neçə ağıldan səyə.

* * *

Səyə qoşulanın özü də səydi,
Səntək müəllimi neçə səy əydi.
Qoşuldun neçə il neçə səylərə,
Atdığın oxlar da boş yerə dəydi.

* * *

Bax budur pisliyin axırı, sonu,
Pislik eyləyənin olmaz milyonu.
Pislik eyləyənə rəhmət oxunmur,
Beləsə qurtarır onun hər anı.

* * *

Ay insan sən çalış pislik eyləmə,
Heç kimə nəlayıq sözlər söyləmə.
Qabağına çıxar həmin pisliklər,
Yaxşılıqlar eylə çayı qoy dəmə.

* * *

Bil ki bu dünyada yaxşılıq qalır,
Yaxşılıq eyləyən çox gec qocalır.
Günlərini keçirt yaxşılıqlarla,
Yaxşılıq eyləyən əvəzin alır.

* * *

Nəriman Əyyubam, budur amalım,
Allahım veribdir vardır kamalım.
Heç klmə pisliklər etməmişəm mən,
Odur ki yaxşıca keçib əhvalım.

* * *

"Yaşamaq yanmaqdır" deyib Bəxtiyar,
Onu gözəl şair bilir hər diyar.
Sözləri qızıldan qiymətli olub,
Odurki, dünyada qalıb yadigar.

* * *

Səmədin sözləri Peyğəmbər sözü,
Vurğunun gənclikdən qalıbdır izi..
Cəlaloğlu kimi az qananların,
Gözləri götürmür, söyləyib özü.

* * *

Özü vecsiz olan bəzi insanlar,
Dünyanın işini çox sadə anlar
Elə işlər varki dərindən dərin,
Onu səhv anlayır nə qədər canlar.

* * *

Can var ki can kimi min cana dəyər,
Can var kişi kimi min canı əyər.
Yamanliq əlindən gəlməyir heç an,
Yamanlıq edəni mədəni söyər..

* * *

Yamanlıq eylədi getdi Kifayət,
Ondan qazanmadı bir misqal sərvət.
Neçə gündə söndü getdi dünyadan,
Torpağa qarıçdı çürüdü sümük ət.

* * *

Bax budur həyatın axırı sonu,
Saxlaya biləmməz neçə milyonu.
Eləki vaxt gəldi, vədə yetişdi,
Xeyri yox düzəltsən qızıldan donu.

* * *

Qızıldan tabutun olsa da belə,
Bir qədər içində qalsan da hələ.
Onun da heç zaman yoxdur faydası,
İstər hökümdar ol istərsə Lələ.

* * *

Milyardlarla varı vardır Öndərin,
Müalicə oldu dərindən-dərin.
Vaxt çatdı faydası olmadı onun,
Getdi o torpaqda yatgı çox sərin.

* * *

Odur ki heç nəyin faydası yoxdur,
Bilinki ölümlər doğrudur haxdı.
Hakim qalmayıbdır, qala da bilməz.
Sanmayın kimsədən ölüm uzaxdı.

* * *

Şükürlər hələlik yaşayıram mən,
Getsəm gələ bilməyəcəm yenidən.
Allaha çox şükür hələlik sağam,
Yadda saxlayacaq məni bu Vətən..

* * *

Niyə narahatsan ay yazıq canım,
Elə iş görmürəm sonra utanım.
Özünü tox saxla, düşünmə heç an,
Heç nə xeyir vermir işlək dərmanım..

* * *

Dərman xeyir vermir çünki saxtadır,
Yad ellərdən gəlir, baxta-baxtadır.
Alır az qiymətə manapolyalar,
Qanı təmizləmir qanlar laxtadır.

* * *

Yad ellərdən gələn nə varsa hamı,
Bircə meyvənin də olmayır tamı.
Qədim meyvəmizi dəyişdirdilər,
Dedim olmaz, saymadılar sədamı.

* * *

Elimizdə vardı gözəl meyvələr,
Kəsib doğradılar, etdilər nələr
Yerində əkdilər yad meyvələri,
Yadıma düşdükcə qəlbimi dələr.

* * *

Yoxdur Qubamızın o ağ alması,
Qızıl alma olan dərman faydası.
Bircəciyin tapmaq olmur bazarda,
Heç bir yerdən gəlmir onun sədası.

* * *

Pozdu hər qaydanı gələn yad əllər,
Onlara qarışdı neçə gözəllər.
Gələn dar şalvarlar moda düşübdür,
Qəbul da eyləyib susan o dillər.

* * *

İndi də geyirlər tumanı yarı,
Qurşaqdan aşağı görünür arı.
Vecinə almayır ata-anası,
Heç biri verməyir kəskin qərarı.

* * *

Pozulub zəmanə, pozulub dünya,
Tükəzbandan yaxşı geyinir Sonya.
Ağalar da Sonyalara bənd olub,
Baxdıqca onlara gülür hər Tanya.

* * *

Bizimkilər keçib yaramazları,
Qalmayıb namusu, qalmayıb arı.
İçtimai yerdə saqqız çeynəyir,
Qarşısını almır qoca nə qarı.

* * *

Nəriman Əyyub, bu dərd incidir səni,
Ona görə sıxır sağlam bədəni.
Dünya yaman pozulubdur bulanıb,
Heyif pozacaqlar gözəl Vətəni.

* * *

Söylədin ürəyim yatır əzizim,
Mənim də işləmir bu işlək dizim.
Görünur ömürü xərcləmişik biz,
Heyif görməyibdir məni Təbrizim.

* * *

Ürəyim istəyir gedəm Təbrizə,
Müalicə etdirəm orada dizə.
Ona da imkanım hələlik yoxdur,
Olan həqiqəti deyirəm sizə.

* * *

Təkcə onlar deyil, bütün varlanan,
Olmayır qeyrəti, olmur utanan.
Onlar savadsızdır, səviyəsi yoxdur,
Belə varlananlar olmayır qanan.

* * *

Varlandıqca gözləri korlaşır,
Pulu çoxaldıqca çaşdıqca-çaşır.
Özünü hamıdan o üstün tutur,
Qaynayan qazan tək qaynayır, daşır.

* * *

Sanmayır daşmağın yoxdur axırı,
Gah içir konyakı, gah da çaxırı.
Səviyyəsiz-səviyəsiz hey dolandıqca,
Açılır qəlbinin hər bir "paxırı".

* * *

Nə deyəsən belə səviyyəsizə,
Dəyərsiz sözləri söyləyir üzə.
Belə səviyəsizi imkanın ola,
Atasan gür çaya, yaxud dənizə.

* * *

Dəniz də hayıfdır, yumaz murdarı,
Çünki biqeyrətin yox nanus-arı.
İnsanlıqdan çıxıb, əqidəsizdir,
Gözlərini titub dövləti-varı.

* * *

İnsanlıq azalıb, dünya boş qalıb,
Olan insanlar da artıq qocalıb.
Qalanlar da artıq getsə dünyadan,
Onda bil ki, dünya tamam boşalıb.

* * *

Elə boşalmıştək görünür dünya,
Heç kim qulluq etmir ata - anaya.
Oğul zövcəsiylə evdə kef çəkir,
Yoxdur bir ağsaqqal onu danlaya.

* * *

Nədəndir qəmlisən ay yazıq canım,
Ağrıyır hər yerim, bütün hər yanım.
Yaşım ötüb keçib, xərcləmişəm mən,
Təzyiqlə oynayır gündəlik qanım.

* * *

Bakının havası çox natəmizdir,
Yanında bulanan Xəzər dənizdir.
O qədər çirklidir çimmək də olmur,
Kəndimin havası xeyli təmizdir.

* * *

Ora da getmirəm, yoxdur iş yeri,
Hamını yiyələnib şəhərin Meri.
Yaxın qohumları yığıb başına,
Başqa merlər ondan qalmayır geri.

* * *

Qocalmış olsam da işləməliyəm,
Sanmayın ağılsız, yaxud dəliyəm.
İki yüz təqaüd bəs etmir mənə,
Yoxsa saymayınız mən gülməliyəm.

* * *

Altmış il qüsursuz işləsəm də mən,
Başbilən təqaüd az verir nədən?
Qanunlar da düzgün tərtib edilmir,
Odur ki, xəstədir narahat bədən.

* * *

Təqaüd komunal xərcə bəs etmir,
Komunalı alan əl çəkib getmir.
Onu da verəndə qalırsan tam ac,
Odur ki, təqaüd heç nəyə çatmır.

* * *

Fikir etməyin də yoxdur mənası,
Yadımızdan çıxıb ana laylası.
Heyif o uşaqlıq günlərimizə,
Dünyamızın pozulubdur qaydası.

* * *

O gözəl dövranlar məhv olub getdi,
Kişilər kəhərlər minərək itdi.
İndi ağsaqqallıq, kişilik yoxdur,
O gözəl adətlər yox olub bitdi.

* * *

Qocalmış olsam da hələ suluyam,
Nəvə-nəticəmlə şükür doluyam.
Şükür ki Allahım saxlayır məni,
Qanmazın ağası qanan quluyam.

* * *

Uzun yaşamağın başqa şərti var,
Dünyanın namərdi, həm də mərdi var.
Pozulubdur bütün nizam tərəzi,
Dərdli insanların böyük dərdi var.

* * *

Ay vəfalı gəlin, ay bibim qızı,
Sevmədin çox şeyi, sevdin sən azı.
Daimi özünü tox saxlayırsan,
Heç zaman həyatdan olma narazı.

* * *

Yaxşı işlər gördün, oldun mərdana,
Evimizdə sənsən daim mərd ana.
Mərdanəliklərlə keçirtdin ömür,
Yaxşı tövsüyələr verdin qanana.

* * *

Elimin içində hörmətin oldu,
Səni qananlarım yaxşı ki, boldu.
Hörməti insanın özü qazanır,
Hörmətsiz olanlar saraldı-soldu.

* * *

Hörməti qazanmaq öz əlindədir,
İşində-gücündə əməlindədir..
Əqlin düz işləsə hörmətin olar,
Yaxşı hörmət sənin öz dilindədir.

* * *

Dilini işlətsən daim səmimi,
Hörmət qazanırsan hörmətli kimi.
Eləki nalayıq sözlər danışdın,
Onda ortalıqdan qırdın tilsimi.

* * *

Hörməti qazanmaq deyildir çətin,
Yaxşı insan olsan olar hörmətin
Əsil insanlığın çoxdur mənası,
Ağıllı insanın olur sərvəti.

* * *

Təsadüf ağılsız yığsa sərvəti,
İnanın axıra saxlamaz qəti.
Ağılsızlığından dağıdıb gedər,
Ağılsızın heç vaxt olmaz hörməti.

* * *

Mən belə görmüşəm, dünya belədir,
Bəzini ucaldır, bəzini "mələdir".
Elə insanları varlandırır ki,
Tanrım insanları sanki ələdir.

* * *

Qanmaz göylə gedir, qanan dərd çəkir,
Dahinin, alimin belini bükür.
Çəkdiyi zəhməti yaşatmır onu,
Fikirlərdən sonra alçaır çökür.

* * *

Bahalı maşında gəzir hər nadan,
Piyada dolanır alim, həm qanan.
Dünya tərəzisi artıq düz çəkmir,
Kor olub zəmanə, deyil utanan.

* * *

Yaman yaralıyam yar bilir onu,
Sanki yaxınlaşır ömrümün sonu.
Ağrıyır bədənim, başım ağrıyır,
Görünmür gözümə varsa milyonu.

* * *

"Şöhət şəfa verməz, can olsa xəstə",
Onu Vurğun deyib: "O boyu bəstə.
Xəstələndi vaxtsız getdi dünyadan,
Sözləri nalədir, kəsmə şikəstə".

* * *

Hər sözü ləl idi, ana laylası,
Dünyaya yayıldı onun sədası.
Səməd kimi gəldi, Vurğun tək getdi,
İllər ilə keçdi hüzürü, yası.

* * *

Sədası yayıldı bütün cahana,
Göz yaşı axıtdı nə qədər ana.
Mən də çox ağladım, dözə bilmədim,
Şagirdlərlə birgə çox yana-yana.

* * *

Əzbərləmişdim mən hər əsərini,
Öyrənmişdim sözlərinin dərini.
Oxuduqca doymurdum hər sözündən,
Hər sözü qəlbimin sakit sərini..

* * *

Zəmanə dəyişdi, oxunmur kitab,
Məni çox incidir, eyləmirəm tab.
Hamı qurşanıbdır kamputerlərə,
Çəkilmir sayqacla bir adi hesab.

* * *

Beyinlər qavramır vurma cədvəli,
Kamputerdən yayınmır heç kimin əli.
Robortlaşıb artıq hamının beyni,
Vaxt gələcək hamı olar gülməli.

* * *

Nə edəsən belə gəldi zəmanə,
Artıq qaldıq bundan sonra
gümana. Alah bilir nələr olacaq
sonra, Qalacağıq elm üçün biganə.

* * *

Biganəlik gündən-günə çoxalır,
Qanan insanları indi dərd alır
Zəmanənin yaxşılığı görünmür,
Cavanlar da qəmdən vaxtsız qocalır.

* * *

Necə qocalmasın yox iş yerləri,
Bir işləyən saxlar neçə nəfəri.
Misqal təqaüd də çatmır heç nəyə,
Yazıq zövcə gündə görür boş əri.

* * *

Uyublar gündəlik kamputerlərə,
Neçə cür telefon alıblar hərə.
Nə kitab oxuyur, nə də öyrənir,
Başlayıbdır tamam başqa mənzərə.

* * *

Məktəb dərs öyrətmir, qalıb savadsız,
Telefon oynadır hər oğlan, hər qız.
Telefon xəstəliyi tutub hamını,
Oynadır küçədə neçə ağılsız.

* * *

Biri bəs eyləmir alır neçəsin,
Gah "xoruzun" alır, gah da "beçəsin".
Xoşuna gəlməsə tullayır cütün,
Eləsini alır gur çıxsın səsin.

* * *

Bazar iqtisadiyyatı pozub hamını,
Natiqlər unudub öz ilhamını.
Hamı bazarlaşıb, bazarda gəzir,
Heç kim başa düşmür ağız tamını.

* * *

Nə meyvənin, nə ərzağın tamı yox,
Yararsız ərzaqla heç kim olmur tox.
Belə zəmanəyə nə deyim axı?
Dünyada çoxalıb nanəciblər çox.

* * *

Yenə də yalanlar söylənir gündə,
Heç kim bilmir nələr olacaq öndə.
Səksən yaşa yaxınlaşıb ömürüm,
Gündəlik gedirəm işimə mən də.

* * *

Necə getməyim ki, təqaütüm az,
Onu verib ağıldan olan dayaz.
Komunal xərclərə çatmır təqaüd,
Odur ki, fikirdən oluram nasaz.

* * *

Nasazlıq da pulla müalicə olur,
Dərmanlar saxtadır, sifətlər solur.
Manapolyalardı gətirən onu,
Qəmlənən bu qəmlər ürəyə dolur.

* * *

Neyləyək ürəklər çəkir bu qəmi,
Bədən də götürür gündəlik nəmi.
Xəstəliklər çoxalıbdır ölkəmdə,
İtiririk yaxşı dostu, həmdəmi.

* * *

Nəriman Əyyub, qəhərlənmə vaxt ötüb
Çəkdiyin keflərin axırı bitib.
Ömürün mənası daim belədir,
O gözəl günlərin azalıb bitib.

* * *

Məni yaman incidirsən Allahım,
Mənim güvəndiyim göydəki Şahım.
Yaşadırsan, alqışlarım səmimi,
Hərdən incidirsən nədir günahım?

* * *

Heç kimin qəlbinə dəyməmişəm mən,
Səmimi alqışım vardır yenidən.
Bircə sərçəni də öldürməmişəm,
Bəs niyə ağrıyır gündəlik bədən?

* * *

Zəkam ilə işləmişəm gündəlik,
Nə ceyran atmışam, nə də ki, əlik.
İlanın da xətirinə dəymirəm,
Deyirəm yaşasın hələ üstəlik.

* * *

Kəsməmişəm bircə canlının başın,
Sevmişəm vətənin torpağın-daşın.
Mənə əzab vermək məncə günahdı,
Dəyməmişəm xətirinə yoldaşın.

* * *

Allahım sən özün yaxşı bilirsən,
Yaxşını-yamanı özün bölürsən.
Məni tanıyırsan zərərsiz insan,
Yoxsa əziyyət verib mənə gülürsən?

* * *

Verdiyin əziyyətə olmuram ası,
Sən yaxşı bilirsən onu, qadası.
Əsirgəmə etdiyin yaxşılığı,
Əziyyət verməsən, olar faydası.

* * *

Artıq pozulubdur bizim dünyamız,
Atanı-ananı saymayır çox qız..
Abırsız-həyasız dolanır gündə,
Qeyrətlilər indi az qalıb yalnız.

* * *

Qeyrətliləri də bəyənmir nadan,
Qeyrətsiz doğulub çünki anadan.
Nalayiq işləri görür gündəlik,
Elə pozulubdur olmur utanan.

* * *

Utanmağı çəkilibdir üzündən,
Abırsızlıq görünür qaş-gözündən.
Baxmaq olmur belə abırsızlara,
Ürpənirsən danışdığı sözündən.

* * *

Hər yazımda nələr dedim, söylədim,
Neçəsinə yaxşılıqlar eylədim.
Etdiyim yaxşılıq havayı oldu,
Peşman oldum ki, kimə neylədim.

* * *

Yazıq canım, yaralanmış yerin var,
Başına yağıbdır sanki soyuq qar.
Qarı təmizləmək artıq çətindi,
Bir məni saxlayır yarım vəfadar.

* * *

Yarın vəfalısı ömür uzadır,
Yar da yardan gündə şirinlik dadır.
Xoşbəxt o adamdı yarı vəfalı,
Vay halına yar-yarını aldadır.

* * *

Onda çox uduzur hər ikisi də,
Bir də yaxşı deyil, yar yarı güdə.
Belə yaşamağın yoxdur mənası,
Gəzəyən arvadın kişisi gədə.

* * *

Gədəlik yaraşır indi çoxuna,
Aca yox, yaraşır ancaq toxuna.
Toxluğu aldadır, ucuzlaşdırır,
Ona görə fikir vermir yaxına.

* * *

Yaxına istəmir yaxşılıq etsin,
Ürəyindən keçmir evinə getsin.
Təsadüf görüşsə soyuq görünür,
Arzumdur belənin ömürü bitsin.

* * *

Qohuma xar baxan kor olacaqdır,
Axırda özü də tək qalacaqdır.
Çünki Tanrım ona nəzarər edir,
Xudamın hökmülə tez solacaqdır.

* * *

Belədir, Allahın cəzası belə,
Soyuqları salır axan gur selə.
Lazım deyil heç vaxt belə soyuqluq,
Belələri lazım deyildi elə.

* * *

El də lənətləyir yaramazları,
Əqildən, şuurdan çox dayazları.
Heç kimə xeyiri çatmayanların,
Başına çox oyun açır qızları.

* * *

Nə deyəsən belə az qananlara,
Xalqımın içində sağalmaz yara.
Bəd xasiyyətli şişdi sağaltmaq olmur,
Sağalan deyildi aparsan hara..

* * *

Belədir zəmanə, belədir qardaş,
Gündə qocalıram mən yavaş-yavaş.
Allahdan narazı olmamışam mən,
Çox da ki, ağarıb çiynim üstə baş.

* * *

Yaman kövrəlirsən ay yazıq canım,
Şükür ki, doludur bütün hər yanım.
Az qalıbdır səksən yaşa çatıram,
Hələ yaşamağa vardır gümanım.

* * *

Çoxda ki, ağrıyır bu gün ayağım,
Şükür əskik deyil balın-qaymağım..
Bu yaşında işə gedə bilirəm,
Sarsıda bilməyir qocalıq çağım.

* * *

Hələlik işləyir əqlim, kamalım,
İstəmirəm gözəllərdən kam alım.
Gözəlləri sevmək vaxtımdan ötüb,
Arzumdur hələlik beləcə qalım.

* * *

Allahımdan olmamışam narazı,
Xudamdan daimi razıyam-razı.
Çox da ki, təsadüf incidir məni,
Ömrüm boyu olmamışam tamarzı.

* * *

İyirmi yaşımdan bu günə kimi,
İşləmişəm qırmışam çox tilsimi.
İki yerdə işləmişəm daimi,
İşlədiyim yerdə daim səmimi.

* * *

Səmimilik qalıb mənə atamdan,
Can demişəm eşitmişəm daim can.
Heyif bəziləri nanəcib çıxıb,
Onların əcirin versin Yaradan.

* * *

Yaradanım yaxşı bilir mən kiməm,
Öz əqlimə, şuruma hakiməm.
Bir nəfərə pislik etmədim əsla,
Yanana naləyəm, yanıqlı siməm.

* * *

Yanmayana yaman oluram mən də,
İnsanları belə yaman görəndə.
Atalar söyləyib pisə pislik et,
Onda başa düşər o yaman bəndə.

* * *

Yaxşılıq eylədim qohumlarıma,
Xəsislik etmədim olan varıma.
Layıq olmadılar məntək insana,
Xainlik etdilər ehtibarıma.

* * *

İndi zəmanəmiz yaman soyuyub,
Varlananlar şan-şöhrətə uyuyub.
Başa düşmürlər ki, faydası yoxdur,
Gedənlər yaxşını yamanı qoyub.

* * *

Sizə, dünya heç də sahibsiz olmaz,
Görürsənmi daim xoş olmayır yaz.
Təsadüfii varlanmısan sevinmə,
Bir də gördün baş töküldü oldu daz.

* * *

Çox da güvənməki, səbəbkarın var,
Səbəbkarın gedər dünyan olar dar.
Onda ha kişilən sən kimsən axı?
Soyuqluqdan səndə heç olmyır ar.

* * *

Sən göylə gedirsən, mənəm tamam ac,
İşləyə bilmirəm qaldım naəlac.
Axı necə dözür varsa qeyrətin?
Səni qəbul etməz getdiyin o Hac.

* * *

Arxanca boylanır ac qohumların,
Sən isə kənarda gəzirsən harın.
O harınlıq xeyir verməz heç kimə,
Bəs eyləyər yüz qohuma o varın.

* * *

Hər şey bu dünyada müvəqqətidir,
Mənim söylədiyim sözlər qətidir.
Yazıramsa ağıllanmır ağılsız,
Şairlərin söylədiyi itidir.

* * *

Sən də qeyrətini köklənsən zilə,
Onda kişiliyin olacaq təzə.
Qohuma, qardaşa hörmət eyləsən,
Onda heç bir zaman gəlməzsən gözə.

* * *

Göz dəyir daimi biqeyrətlərə,
Ona fikir vermişəm mən min kərə.
Yaxşılıq eyləsən heç itirməzsən,
İgid tək daimi sən min yəhərə.

* * *

Kişilər kəhəri minib getdilər,
Kişiliyə ömür qurban etdilər.
Kişilərdən qalıbdır az nümünə,
Heyif kişilərə, xeyli itdilər.

* * *

Gözləyirəm gəlsin o kişilərdən,
Gəlsələr ayrı düşməz ruh və bədən.
Qocalmışam haqsızlığa dözmürəm,
Bilmirəm hövsələm tükənib nədən.

* * *

Hər məqsədə çatmaq xeyli çətindi,
Dünyanı düzəltmək saf qeyrətindi.
Saf qeyrəti olmayanlar var hələ,
Qeyrəti olanlar saf millətindi.

* * *

Dedim kömək eylə, mən qocalmışam,
Qaranlıq yoluma yandır azca şam.
Nə şamı yandırdın, nə kömək etdin,
Ona görə hirslənirəm hər axşam.

* * *

Hirslənməyim heç də səbəbsiz deyil,
Səni qohum sandım, onu yaxşı bil.
Qohumluğu tulladınız gür çaya,
Ona görə məndə dinir daim dil.

* * *

Ha dilim tərpənir, yazıram yazı,
Soyuqluğun məni saldı narazı.
Gileyli bir şer yazdım bilmədin,
Hirsimdən çalmadım sədəfli sazı.

* * *

Dediyim tənqidi sən təhqir saydın,
O gileyi söyləmişdim mən aydın.
Savadın olmadı, başa düşmədin,
Onu təhqir kini hərdən də yaydın.

* * *

Məktəbsiz savadın olmayıb sənin,
Mənə kinayəli olub bədənin.
Mənimsə təqsirim olmayıb heç an,
Başa salmayıblar gəlib gedənin.

* * *

Atanla doğmayıq, yad deyilik biz,
Uşaqlıqda yaxın idik ikimiz.
O qocalıb, savadsızdı oxumur,
Nə üçün tərsinə başa düşdün üz.

* * *

Qohumun qohuma olar hörməti,
Hörmət saxlayanın olar şöhrəti.
Şöhrətin olmasa nəyə lazımsan,
Bir də gördün itirmisən sərvəti.

* * *

Atalar deyibdir, əl çirkidir var,
Varı çox olanın qəlbi olar dar.
Daim söyləmişəm, söyləyəcəyəm,
Qalsın bu sözlərim daim yadigar.

* * *

Yazdığım sözləri oxuyan yoxdur,
Heyif ki, nadanlar hələlik çoxdur.
Varlılar özünü tamam itirib,
Ağıllı yalavac, ağılsız toxdur..

* * *

Birgə yaşayıb bir vaxt komunistlər,
Hərəsi bir igid, hərəsi bir nər.
Kapital dağıtdı həmin qurluşu,
İndi dövran sürür kapitalistlər..

* * *

Vətən mənə şair desə nə dərdim,
Şair kimi dağlarımda gəzərdim.
Fəxr edərdi mənim ilə vətənim,
Namərd deyil, sevərdi məni mərdim.

* * *

Xalqın şairiyəm sevəcək məni,
Əvəz eyləyirəm gəlib gedəni.
Oxucum oxusan yazdıqlarımı,
Başa düşərsiniz mən hər deyəni.

* * *

Çox gec çap olunub yazdığım yazı,
Vaxtında qılmadım olan namazı.
Məni qınamayın vaxtım olmadı,
Başım çox qarışdı, çalmadım sazı.

* * *

O vaxt yetim oldum, ailə saxladım,
Məşhurlaşdı onda mühasib adım.
Qiyabi oxudum ali məktəbi,
Olmadı sazı öyrədən ustadım.

* * *

Beləcə ay keçdi, illər dolandı,
Yaşım böyüdükcə gəncliyi dandı.
İyirmi beş yaşdan ailə başçısı,
Ailəni saxlamaq qəlbimin andı.

* * *

Atam cavan getdi qardaşım ilə,
Tənhalığı dandım mən bilə-bilə.
Sınmadım heç zaman el arasında,
Göstərdim özümü mən gülə-gülə.

* * *

Nə çəkdimsə axır daxildə çəkdim,
Baxçamda yüz cürə ağaclar əkdim.
Gülşənə döndərdim öz məhləmizi,
Köhnə evi söküb yenisin tikdim.

* * *

Başım qarışsa da öz ailəmizə,
Əsərlər yaratdım mən təzə-təzə.
Döymədim mətbəə qapılarını,
Elə iş görmədim tez gələm gözə.

* * *

Ömürüm getməsə əgər tez bada,
Çoxlu əsərlərim qalar dünyada.
Dünya belə gəlib, belə gedəcək,
Ehtibarsız olmayaydı dünya da.

* * *

Hələ yaşayıram, şükür Allaha,
Borcluyam göydəki həmin o Şaha.
Nə vaxt vaxtım çatsa mən gedəsiyəm,
O da qalıb ancaq Allah-Pənaha.

* * *

Yaşa, ay eloğlum, Qəlbinur Paşa,
Dəyməsin ayağın heç zaman daşa.
Gözlərə nur verir o istedadın,
Mən ikicə əlli, sənsə yüz yaşa.

* * *

Həqiqi nur imiş, qəlbin Qəlbinur,
İstedadlı alim, filosof məğrur.
O adı verənin üzü ağ olsun,
Odurki, dünyada olmusan məhşur.

* * *

Sizi tanıdıbdır o istedadın,
Vətənə yayılıb o böyük adın.
Gözəl xasiyyətin və davranışın,
Sevir səni qohum, elə də yadın.

* * *

Bu tale Tanrıdan verilib sənə,
Şöhrətin yayılıb ana Vətənə.
Zövcəmi sağaltdın, mən onu gördüm,
Sağ olun əzizim, deyirəm yenə.

* * *

Alimliklə birgə şairliyin var,
Arzumdur başına yağmasın tez qar.
Şükürlər hələlik yaxşı qalıbsan,
Şerimi yazıram qalsın yadigar.

* * *

Alqışlar görürən qapında gündə,
Onda sevinirəm ürəkdən mən də.
Belə hal əbədi daimi qalsın,
İstedadsan bizim ana Vətəndə.

* * *

Bu adın daimi əbədi qalsın,
Nurlu istedadın yenə ucalsın.
Ürəkdən sevirəm ay Vətənoğlu,
Arzumdur ömürün yüzdə qocalsın.

* * *

Böyiik ad almısan ana Vətəndə,
Sevir oğlu kimi ana Vətən də.
Bir eloğlu kimi fərəhlənirəm,
Hamıyla birlikdə sevinirəm mən də.

* * *

Qocalıq qismətdi, hamı qocalır,
Qocalan var, qocaldıqca ucalır.
Sizə qismət olsun belə qocalıq,
Ağıllı insanlar yaxşı ad alır.

* * *

Oğlusan Vətənim Vedibasarın.
Paşa Qəlbinursan, deyilsən harın.
Nəriman Əyyub sevir ürəkdən səni,
Qoy olsun bu şerim bir yadigarın.



## ŞÜKÜR

Şükürlər Allaha yaşadır məni,
Hələ yaşayıram, buna da, şükür.
Eşitmirəm heç vaxt nadan deyəni,
Sağlam yaşayıram, ona da, şükür.

İyirmi yaşımdan işə başladım,
Yaxşı işçi kimi ucaldı adım.
Atam Əyyub oldu mənim ustadım,
Doxsan il yaşadı ana da, şükür.

İşlətdim daimi alın tərimi,
İşimdə göstərdim öz hünərimi.
Firəvan yaşatdım mən nəfərimi,
Getdim hər bir yerə, yana da, şükür.

Şükür eyləməyən səhv edir hər an,
Ona nifrət edir Ulu Yaradan.
Şükürü yadından çıxarma insan,
Hələ ki, yaşayan cana da, şükür.

Yaltaqlıq etmədim keçəm bir başa,
Nifrətlə yaltağa etdim tamaşa.
Yaşa, Nəriman Əyyub, söylədim yaşa,
Tikdim neçə saray, bina da, şükür.

***26.05.2014.***



## BALOĞLAN

*Sevimli Müğənni Baloğlan Əşrəfova*

Ona ana verib adı, bal dadır,
Hamı bilir bal səslidir, Baloğlan.
Bu səs onu ildən-ilə ucaldır,
Oxumaqda həvəslidir, Baloğlan.

Tanrım onu bircə dəfə sınadı,
Sınayanda ana qəlbi qanadı.
Bu sınaqla daha yüksəldi adı,
Məlahətli nəfəslidir, Baloğlan.

Sevir onu musiqini qananlar,
Qananlarla birlikdədi yananlar.
Səsinə heyrandı sevən cananlar,
Həm həzin, həm gürsəslidir, Baloğlan.

Mahnıların hər kəlməsi bal dadır,
Sanmayınız o bal bizi aldadır.
Şükür yaşadıqca yaxşı yoldadır,
Gündən-günə həvəslidir, Baloğlan.

Nəriman Əyyub sevir onu hər zaman,
Doğulubdur bal oğlan tək anadan.
Oxuduqca sevənləri deyir can,
İllər keçir birsəslidir, Baloğlan.

***06.05.2015.***



## GÖZÜN AYDIN OLSUN

Gözün aydın olsun Xatirə xanım,
Cavidin toyudur, mübarək olsun.
Gəlsin oynamağa Etibar canım,
Cavidin toyudur, mübarək olsun.

Oynasın Əyyubla birgə Şəhriyar,
Aynurum gözəldir, o gözəl nigar.
Gəlsin oynamağa Sevinc-Bəxtiyar,
Cavidin toyudur, mübarək olsun.

Qoşulsun yallıya o Şamam bacım,
Mənə dayı deyən Bəsti baş tacım.
Heyif oynamağa yoxdur əlacım,
Cavidin toyudur, mübarək olsun.

Gülbəniz-Gültəkin oynasın qoşa,
Gülsəba kənardan etsin tamaşa.
Şamom ilə Rəşad gəlsin bir başa,
Cavidin toyudur, mübarək olsun.

Aişəm, Narifəm, Çinarəm-Çinar,
Oynamağa Qönçəm Aybənizim var.
Salman Mehman ilə şalvarları dar,
Cavidin toyudur, mübarək olsun.

Nəriman Əyyubam, baxıb şadlanım,
Oynaya bilmirəm qocalıb canım.
Dizim saxlamayır axsiyan anım,
Cavidin toyudur, mübarək olsun.

***29.09.2013***



## TANIMADINMI

Boylana-boylana baxırsan mənə,
Dərdinə yananı tanımadınmı?
Gənclikdə sevirdim mən dönə-dönə,
Səni tez qananı tanımadınmı?

Səhərlər çıxırdın yolumun üstə,
Qıyqacı baxırdın sən boyu bəstə.
Zümzümə edirdin kəsmə şikəstə,
Baxıb utananı tanımadınmı?

Yadıma düşdükcə gənclik illəri,
Yadımdan çıxmayır illərdən bəri.
Dərdindən olmuşdum tamam sərsəri,
Səni tez ananı tanımadınmı?

Sən qoca qarısan, mən qoca kişi,
Unudulmur heç vaxt sevgi vərdişi.
Uzaqda qoymuşuq olan keçmişi,
Səninçün soltanı tanımadınmı?

Kaş yenə gələydi gənclik çagları,
Birlikdə gəzəydik uca dağları.
Çoxalıbdır başımızın ağları,
Milli Nərimanı tanımadınmı?

***12.02.2014***



## DƏMİRÇİ HƏSƏNİN VƏFATI GÜNÜNDƏ

Söndün, dayanmışam qəmgin-pərişan,
Boylandım üzünə baxıb ağladım.
Türkanə qışqırdı qəlbim oldu qan,
Eynəyi gözümə taxdım, ağladım.

Azadinin qəlbi qara qan oldu,
Müşkünaz dayanıb yarımcan oldu.
Həsən, getməyiniz bircə an oldu,
Sanki suya düşdüm axdım, ağladım.

Otuz illik dostluq çöndü sal buza,
Dostluq bacarmayan tez gedir duza,
Yazığım çox gəldi səntək yalqıza,
Kədəri qəlbimə sıxdım, ağladım.

Əlibala ilə eylədik fəryad,
Yaxın qohum deyil, olsaq belə yad.
Vecinə almadı iki böyük övlad,
Onlara nifrətlə baxdım, ağladım..

Nəriman Əyyubam, dostcanlıyam mən,
İstədim hər şeyi tez anlıyam mən.
Azəriyəm, Azərbaycanlıyam mən,
Qəlbimi yandırıb-yaxdım, ağladım.

***31.01.2014***



## DƏMİRÇİ HƏSƏNİN DƏFİN GÜNÜNDƏ

Şaxtalı bir gündə, qar yağa-yağa,
Həsənin cəsədin bükdülər ağa.
Nə idi günahı onun Allahım?
Qalmadı gələn il gedək yaylağa.

Zarafat edərdim Həsən dəmirçi,
Əhəmiyyət vermirdi nəçiyəm nəçi.
Nə desəm heç zaman küsməzdi
məndən, Çünki çox saf idi ürəyinin içi.

Hər kitab yazanda bir "daş" atardım,
Zarafatla məqsədimə çatardım.
Heç vecinə almayırdı mərd kişi,
Zarafatı bir-birinə qatardım.

Dostu tez itirmək çox çətin olur,
Dost dərdi çəkənlər saralır-solur.
Dünyanın vəfası bu imiş demək,
Hər dostdan bir həzin zarafat qalır.

Qaldı Dəmirçidən xeyli aralı,
Cavan Azadinin qəlbi yaralı.
Mənimtək tez oldu ailə başçısı,
Atasız qalanlar qəlbi paralı.

Qəm etmə Azadi, mən də sənintək,
Çox cavan atasız qalmışam demək.
Zəhmətlə işlədim ailə saxladım,
Məni kişi kimi yaşatdı əmək.

Bir gedən yazıqdır, dünyadan köçür,
Dünyanın sonuncu şərbətin içir.
Qalan yaşayacaq, böyüyəcəkdir,
Tək gedən ömrünün zəimisin biçir.

Türkanə zarıdı, yandırdı məni,
Böyüyünün tərpənmədi bədəni.
Müşkünaz baxdıqca acıdı ona.
Ay nadan iradım yandırsın səni.

Soyuqdan soyuqdur, qızmaz heç zaman,
Çünki soyuq doğulubdur anadan.
Şair kimi həqiqəti söylədim,
Daim həqiqəti yazan Nəriman.

***01.02.2014***

## DÜNYA

Soyuqlaşıb qohum, qardaş,
Dünya çönür yavaş-yavaş.
Nə dost qalıb, nə də adaş,
Etibarsız olub dünya.

Varlananlar olub harın,
Harınlar dəyişir yarın.
Gözləmir namusun-arın,
Hayasızla dolub dünya.

Çoxu olub etibarsız,
Etibarsız olub arsız.
Arsızların çoxu yarsız,
Ona görə solub dünya.

Zənənlərin arsız çoxu,
Demək olmur gəbə toxu.
Söyləyən yox kitab oxu,
Pis günlərə qalıb dünya.

Arsız tərifləyir özün,
Anlamır dediyi sözün.
Örtmür olan əyri dizin,
Həyasını silib dünya.

Etibarsızlıq görəndə,
Yaddaş zəifləşir məndə.
Nəriman Əyyub qoca bəndə,
Yüz xəyala salıb düya.

***12.02.2014***



## DÜNYA

Dünya yaman dəyişibdir,
Namus, qeyrət əyişibdir.
Varlananlar çox şişibdir.
Pozulubdur olan dünya.

Zənənlər də sürür maşın,
Qırxır gözəl qara qaşın.
Bəzən də saymır yoldaşın,
Çönüb olub yalan dünya.

Beşgünlüyün yox faydası,
Tərsinə dönüb qaydası.
Gündəlik görürük yası,
Çiçəkləri solan dünya.

Var dəyişib çoxlarını,
Görürük gündə harını.
Harın dəyişir yarını.
Harınlarla kalan dünya.

Günlərimiz boş keçməyir,
Bu hal bizi xeyli əyir.
Baxıb qəlbimiz göynəyir,
Olmur qeydə qalan dünya.

Ekranda çılpaq oynayır,
Nə böyük, ağsaqqal sayır.
Bu abırsız nəyi yayır?
Onu vursun ilan, dünya.

İlan vuraydı arsızı,
Şalvar geyən abırsızı.
Bir də tez atlanan qızı,
Gündən-günə solan dünya.

Nəriman Əyyub, çəkmə qəmi,
Yaxşı saxla sən həmdəmi.
Sil gözünə gələn nəmi,
Kərəmini çalan dünya.

## AYLI AXŞAM

Sərin gecə, aylı axşam,
Mən də bir vaxt gənc olmuşam.
Ömrüm-günüm keçib necə,
Yarı gündüz, yarı gecə,.

Demək yarı tək qalmışam,
Tək qalsam da ucalmışam.
Ucaldıqca qocalmıçam,
Allahımdan mənəm razı.

Çoxalıbdır nəvələrim,
Hərəsi bir igid nərim.
Görən söyləyir afərim,
Heç kim olammaz narazı.

Ömür yaşım olub yarı,
Unutmaram heç vaxt yarı.
Yar bibimin yadigarı,
Birgə gözləyirik yazı..

Yaşamaram olsam yarsız,
Yarsız kişi olar varsız.
Yar sevməyən olur arsız,
Yardan öyrənmişəm nazı.

Nərimanam qocalmışam,
Qocaldıqca ucalmışam.
Çoxlarına yandırdım şam,
Heyif çalammadım sazı.



## SEVƏCƏM YENƏ

Allahdan razıyam, yaşadır məni,
Yola salmışam mən hər bir gedəni.
Tanrım çox yaşadır onu sevəni,
Sevmişəm, sevirəm, sevəcəm yenə.

Mən onun quluyam, o mənim ağam,
Daim sevəcəyəm, nə qədər sağam.
Şükürlər hələlik mən üzü ağam,
Sevmək məndə qalıb yaxşı ənənə.

Mənim yaşıdlarım çoxu qalmayıb,
Demək Xudam məni yaxını sayıb.
Elə iş görmədim eyləyəm ayıb,
Xasiyyət atamdan qalıbdır mənə.

Hərdən ağrısa da böyürüm-başım,
Onun da səbəbi bu keçmiş yaşım.
Bir də təsir etdi tənha qardaşım,
Yadımdan çıxmayır o dönə-dönə.

Belə yaşayıram fani dünyada,
Daim hörmət etdim yaxına-yada.
Nəriman Əyyubam, məndə yox əda,
Sevib məni anam, həm Güllü nənə.

***29.01.2014***

## NƏVƏ, NƏTİCƏ

Nəvələrim böyüyübdür ay Allah,
Gün-gündən çoxalır nəticələrim.
Çoxaldıqca sevinirəm inşallah,
Gözləyirəm olsun kötücələrim,

İlk sevindim Qönçəm qönçələnəndə,
Mənsur gəldi, haray düşdü bu kəndə.
Çox sevindim Aynur nəvəm gələndə,
Onun gəlişinə dedim afərin.

Cavidim-Əyyubum ardıcıl oldu,
Şəhriyartək igidlərim də boldu.
Şamom Rəşadımla çox əhli-haldı,
Onlara həsr oldu neçə əsərim.

Narifəm-Çinarəm çinar kimidi,
Tənha Aişəm də sazın simidi.
Salmanım daimi qəlb məlhəmidi,
Mehmanım böyüyən igidim-nərim.

Birinci nəticəm Rəhim əsərim,
Səmayə gözəlim, dillər əzbərim.
Dəşim körpə bala kiçikcə nərim,
Baxıb çox sevinir bu kövrək sərim.

İncim inci kimi, incidən inci,
Sadə Çinarəmə oldu birinci.
Ayxan da qəlbimin yeni sevinci,
Nərimanam yazmağa vardı təpərim

***01.08.2013***



## MƏHƏMMƏD

Adın peyğənbərin adı,
Sən unutma o soyadı.
Elnurun qolu-qanadı,
Səni sevir el, Məhəmməd.

Müslüm baba sevir səni,
Sən də sev ana Vətəni.
Eşit nənələr deyəni,
Həqiqəti bil, Məhəmməd.

Çinarlının çinarısan,
Babaların vuqarısan.
Dağın əriməz qarısan,
Çox yaraşır tel, Məhəmməd.

Daim xoş günlərlə yaşa,
Dəyməsin ayağın daşa.
Yaraşığın bir tamaşa,
Gülər üzlü gül, Məhəmməd.

Sənsən dağların çiçəyi,
Nəvələrin ən göyçəyi.
Sev nənəni, ağbirçəyi,
Sən babaya ləl, Məhəmməd.

***27.04.2014***

## ABBAS ƏMOĞLU

Arifın ölümü ağır dərd oldu,
Fələk bizim üçün cox namərd oldu.
Mirziyimiz bir vəfasız yurd oldu,
Tanrım cəza Verdi bizə, Əmoğlu.

Belə olub daim fələyin işi,
Tərgitmir o xoşa gəlməz vərdişi.
Unutdurur bizə olan keçmişi,
Bu ağır dərd oldu sizə, Əmoğlu.

Zahirin, Tahirin başı sağ olsun,
Ucalsın başları uca dağ olsun.
Yanınızda üzləri də ağ olsun,
Bu hal heç də deyil təzə, Əmoğlu.

Əzəldən yaranıb dünyamız belə,
Bəzən ömürləri tez verir yelə.
Şükür yaşayırıq səninlə hələ,
Getməmişik biz gəlməzə, Əmoğlu.

Salman gedən zaman fəryad eylədim,
Dərdlərimi yana-yana söylədim.
Gördüm faydasızdır qəmi əylədim,
Tək güc verdim ağlar gözə, Əmoğlu.

Dünya belə gəlib, belə gedəcək,
Bizləri də qara torpaq edəcək.
Ha gizlənək fələk bizi güdəcək,
Bu deyildi heç də təzə, Əmoğlu.

Nərimanın ürəyinə qəm yağır,
Qocalmışam gəzirəm ağır-ağır.
Dərd məni sıxdıqca oluram fağır,
Dizlər qoymur ayaq gəzə, Əmoğlu.

***29.08.2014***

## GÜLÇİN

*"Şəfa" pansionatının tibb*
*bacısı Gülçin xanıma.*

Gözəllər gözəli, sən gözəl pəri,
Gəlməyəsən heç vaxt gözə, ay Gülçin.
Məni müalicə edəndən bəri,
Sanki ruhum oldu təzə, ay Gülçin.

Qalibin qalibi olsun düşmənə,
Qəhrəmanı olsun ana Vətənə.
Gözün aydın olsun desinlər sənə,
Ürəyində olsun məzə, ay Gülşin.

Xoşbəxt olsun sənin ilə Anarın,
O sənin dövlətin, o sənin varın.
Cavanlıqdan Qalib bir yadigarın,
Xoşbəxtlik gətirsin sizə, ay Gülçin.

Yaxşıca bitirdin müalicəmi,
Sağaltdın dizimdə olan o nəmi.
Nəriman Əyyubam, getdiyim dəmi,
Sağ olun deyirəm üzə ay Gülçin.

***17.09.2014***
***Qax "Şəfa" pansionatında.***

## MÜZAKİR

*Məni ölüm pəncəsindən qurtaran mərhum dostum Muzakir İsmayılov ilə Qax "Şəfa" pansionatında Istirahət etdiyimiz günlər yada düşdü.*

Yerin behişt olsun cənnət bağında,
Sevda söhbət etdi yandım, Müzakir.
Aydınla dolandıq Qaxın dağında,
Səni də yanımda sandım, Müzakir.

Birlikdə gəzdiyim yeri görəndə,
Qəhər məni boğdu yaş axdı məndə.
"Şəfa"dan ayrılıb geri dönəndə,
Onda sənsizliyi qandım, Müzakir.

Mən ölə bilərdim məni yaşatdın,
Ölüm pərdəsini üstümdən atdın.
Bıçağı vurmadan məqsədə çatdın,
Zəhmət çəkdin mən utandım, Müzakir.

Məcbur edirdilər kəsəsən məni,
Eşitmədin o nanəcib deyəni.
Onda qardaşımtək sevirdim səni,
İndi yoxsan alovlandım, Müzakir.

Birlikdə gəzərdik "Şəfa" düzündə,
Müdrük sözlər eşidirdim sözündə.
Zarafatlar eyləyirdin özün də,
Zarafatı yaxşı andım, Müzakir.

Heyif o çağlara, o xoş günlərə,
Məndə müalicən verdi səmərə.
Qucaqladım öpdüm səni min kərə,
Qarşınızda şux dayandım, Müzakir.

Yadıma düşdükcə həmin o çağlar,
Ürəyim düşünüb daxildə ağlar.
Sənsiz nəyə lazım baxçalar-bağlar,
Nərmanam, qəlbimdə sandım, Müzakir.

***08.09.2014***
***Qax "Şəfa" pansionatında.***

## ALLAHIM

Yenə məni incidirsən, Allahım,
Təziqim qalxıbdır yenə göylərə.
Ay mənim sevdiyim göydəki şahım,
Ağrılarım qalxıb yenə min kərə,

Nə etmişəm, görən nədir günahım?
Sən olmusan daim mənim pənahım.
Təvəqqə edirəm qalxmasın ahım,
Atı çapmaq üçün minim yəhərə.

Yaşım keçib, bilirəm ki qocayam,
Fəqət bilim çoxlarından ucayam.
Nadanlara nə yoldaşam, nə tayam,
Güvənirəm qəlbimdəki təpərə.

Yaşadıqca yaxınlara əl tutdum,
Samayınki bircəciyin unutdam.
Xoşa gəlməz sözləri bəzən uddum,
Güvənmişəm daim olan hünərə.

Hünərliyəm hünərimi danmıram,
Nanəcibi yaxşı insan sanmıram.
Alçaq olanlara heç də yanmıram,
Nərə çəkənlərə çəkirəm nərə.

Dizlərim saxlamır incidir məni,
Seyr edirəm yaxşı gəzib gedəni.
Nərimanam qocaltmışam bədəni,
Gedə bilməyirəm uzaq səfərə.

***07.09.2014***
***Qax "Şəfa" pansionatı.***



## BU BEŞ GÜNLÜK DÜNYADA

Ölüm öldürsə məni,
Ömrümü versə bada,
Dünya belə yaranıb,
Heç kim qalmır diinyada.
Vaxt çatır, vədə yetir.
Hamı köçün yükləyir,
Təsirlənmir heç zaman,
Vecinə almır, dünya da.

Belə gəlib zəmanə,
Belə davam edəeək,
Ömürlər sona yetsə,
Hamı belə gedəcək.
Ölüm haqdır yaranan
Onu yaxşıca bilir,
Hamı da öz vaxtında,
Ölümünü güdəcək.

Odurki, fikirlərdən,
Əl çək Milli Nəriman,
Yüklənmə fikirlərlə,
Nə qədərki, sağdır can.
Dünyanın axırını.
Heç kim bilməyib, bilməz,
Tək onu yaxşı bilir
Səni verən Yaradan.

***14 noyabr 2014-cü il***



## SƏNSİZ

Bu gün gedən günün, tənha qardaşım,
Şaxtalı qış günü, yanıram sənsız.
Sən getdiyin günü ağardı başım,
İsti yay günündə, donuram sənsiz.

Bu fani dünyada yalqız qalmışam,
Fikirindən saralmışam-solmuşam.
Təsəllimi nəvələrdən almışam,
Tənhalığı daim anıram sənsiz.

Düşdükcə yadıma o gənclik çağın,
Əkib becərdiyin çiçəkli bağın.
Solğun görünmürdü gözəl yanağın,
Gündə tək qalmağı qanıram sənsiz.

Nə edim fələyin gözü kor olsun,
Pislik eyləyənlər saralsın-solsun.
Qamətin qəlbimdə əbədi qalsın,
Özümü kimsəsiz sanıram sənsiz.

Nəriman Əyyubam, yanır ürəyim,
Fikirdən daimi sancır kürəyim.
Sən idin əbədi olan gərəyim,
Sən getdiyin gündən sınıram sənsiz.

***14 fevral 2015-ci il***



## QADIR ALLAH

Anamın yaşını və ölümünü,
İstəyirəm səndən, ay Qadir Allah.
Çəkmişəm dünyanın hər zülümünü,
Səndən gileylərim olmayıb vallah.

Çox fəryad eylədim anam gedəndə,
Atama da fəryad oyandı məndə.
Məzarlar kəntdədi, gedəndə kəndə
Ağlaya-ağlaya gedirəm yolla.

Ağlamaqların da yoxdur faydası,
Ha özünü öldür, ha saxla yası.
Ömürlərin keçib getmək qaydası,
Hələ yaşayıram, şükür, inşallah.

Allahımdan olmamışam narazı,
Ömrüm boyu ondan razıyam-razı.
Heyif çalammadım sədəfli sazı,
Fikirim olmadı heç qeyli-qalla.

Nəriman Əyyubam, artıq qocaldım,
Qocaldıqca əyilmədim, ucaldım.
Nə hörmətdən düşdüm, nə də alçaldım,
Yaşamaqlarıma dedim maşallah.

***22.04.2015***

## NOVRUZ BAYRAMI

Axrıncı çərşənbə, Novruz bayramı
Gəldi ürəyimdə yaz təzələndi.
Oynadı, rəqs etdi şənləndi hamı,
Bu qoca qəlbimdə naz təzələndi.

Süfrəyə düzüldü şəkərburalar,
Paxlava, şorqoğal, gülövşə narlar.
Süfrədə yaşılbaş securesəməni də var,
Oxudu aşıqlar, saz təzələndi.

Cavanlar mindilər kəhər atları,
Yarsız olan gənclər tapdılar yarı.
Hamı qarşıladı gözəl baharı,
Sanmayın gözəllik az təzələndi.

Bu gecə istilər düşdü torpağa,
Qızlar səhəng ilə getdi bulağa.
Az qalıbdır gedək sərin yaylağa,
Bazlandı bazbilən baz təzələndi.

Qoca Nəriman Əyyub yallı oynadı,
Yüksəldi göylərə qolu-qanadı.
Hamıya əzizdi Novruzun adı,
Sevənlər sevdiyi söz təzələndi.

***22.03.2014***

## ANA LAYLASI

Hələ də səslənir ana laylası,
Böyümüş olsam da qulaqlarımda.
Əgər xəstələnsəm başım ağrısa,
Bir daha görmənəm ana yanımda.

Ana haq dünyada, mən nahaqdayam,
Gecələr yuxuma girir nə qədər.
Günəşdi yanımda, mən isə ayam,
Fəqət yuxularda görürəm hədər.

Ayrılıram kədər sarsıdır məni,
Kövrəyəm yaş boğur yenidən yenə.
Qaytarmaq olmayır artıq gedəni,
Nə qayıdır ana, nə də ki, nənə.

Sağ ikən qədrini bilin insanlar,
Gedəndə ha ağla, ha döy özünü.
Qalır yaddaşlarda yaxşı-yamanlar,
Getməmişdən söylə şirin sözünü.

Bir acı söz deməmişəm anama,
Sevələyib daim öpmüşəm onu.
Odur ki ay qəlbim heç vaxt qanama,
Yadımdan çıxammaz ta ömrüm sonu.

Sonu görünməyir ömrümüzün də,
Nə bilirəm nə vaxt gedəcəyəm mən.
Ağrılar yaranıb son vaxtlar məndə,
Anamda da son vaxt olurda hərdən.

Başına dolanıb qulluq edirdim,
Hər il aparırdım sanatoryaya.
Allah da bilir ki, nələr edirdim,
Qoymazdım ki, düşsün isti bir yaya.

Odur ki, fıkrimdən çıxmır heç zaman,
Yuxuma girdikcə sevinirəm mən.
Bahar vaxtı doğulmuşam anadan,
Kaş ki, doğulaydım indi yenidən.

***21.06.2014***

## VEDİDƏ QALDI

Yadıma düşdükcə Mirzik yaylağı,
Uşaqlığım çağı, Vedidə qaldı.
Evimizin yanı o alçaq dağı,
Kotanlının bağı, Vedidə qaldı.

Telli Pənah qızı, səsimə səs ver,
Nəsibə el qızı, hərdən məni gör.
Sərtib sən bilirsən cənnət olan yer,
O Ələkbər dağı, Vedidə qaldı.

Görməyirəm o Əyricə dağını,
Ağmanqalın çiçəkli yaylağını.
Dəvəgözün yazda coşan çağını,
O Porpor bulağı, Vedidə qaldı.

Sən də yaz dərdimi ay Telli xanım,
Nəsibə yazmasan, qaralar qanım.
Yadından çıxmasın Sərtib aslanım,
Xalisanın bağı, Vedidə qaldı.

Nəriman Əyyubun dözmür ürəyi,
Fikirdən ağrıyır gündə kürəyi.
Qovaq o yerlərdən erməni səyi,
Gəncliyimin çağı, Vedidə qaldı.

## DİNMƏDİK

Biri saçın qısa kəsdi,
Daz göründü, dinmədik.
Biri evə çox gecikdi,
Az göründü, dinmədik.
Biri tumanın gödəltdi
"Saz" göründü, dinmədik.
Biri qaşlarını qırxdı,
"Baz" göründü, dinmədik.
Artıq vaxtdır, gəlin dinək,
Ay atalarl Analar!
Dinmədikcə vaxt uzanar,
Əldən gedər namus, ar.

İndi isə üzün qırxmır,
Tənbəl olan gədalar.
Hardan gəldi Vətənimə,
Bu yaramaz modalar?
Yayılır çox pintiliklər,
Həm tənbəllik sədaslar.
Necə sevir bu pintini?

Gözəl-göyçək olan qız
Necə sevir bu pintini?
Ağlı uçan abırsız?
Artıq vaxtdı gəlin dinək,
Ay atalar, analar!
Dinmədikcə vaxt uzanar,
Əldən gedər namus, ar!



## UÇUB GETDİ

Neçə gecə, neçə axşam,
Mən də bir vaxt gənc olmuşam.
Ömrüm artıq uçdu, getdi,
Məni çox pərişan etdi.
Necə keçib bilməmışəm,
Heç havayı gülməmişəm.
Cavanlığım uzaqlaşıb,
Əqlim isə xeyli çaşıb.
Nə tez gedib cavanlığım?
Həmin olan soltanlığım.
Yadıma düşdükcə illər,
O gözəl olan fəsillər.
Keçib gedib uşaqlığım,
Anama olan qılığım.
Anam tez dururdu tezdən,
Tumana yamağı bezdən,
Yamayırdı şalvarıma,
Şalvar olur burma-burma.
Şalvar deyil, tuman idi,
Bilməyirdik şalvar nədi.
Belə keçdi ömrüm-günüm,
Axı necə mən öyünüm?
Yenə şükür Alllahıma,
Görünməyən o Şahıma.

## CIĞATEL

Yeni kitabını oxudum bu gün,
Məni xəyallara saldı , Cığatel.
Şair ürəyimi tərpətdi bütün,
Qəlbimdə əbədi qaldı, Cığatel.

Hikmətlər görünür hər kəlməsində,
Şer söyləyəndə incə səsində.
Ola bilməz kimsənin kölgəsində,
Sözlərində əhli-haldı, Cığatel.

Yazıları sevgisindən yazıbdı,
Saymayınız düz yolundan azıbdı.
Nadanlara dərin quyu qazıbdı,
Beləliklə xamxəyaldı, Cığatel.

Doğrudan da cığalıdır telləri,
Dolandıqca çəmənləri-çölləri.
Vəsf eyləyir vətənimdə elləri,
Hər kəlməsi sanki baldı, Cığatel.

Sözlərində sədaqətli sevgi var,
Elə sözlər demir sonra etsin ar.
Nəriman Əyyubdan qalsın yadigar,
Qəlbimdə telli saz çaldı, Cığatel.

***25.04.2015***

## TELLİ BORÇALI

Mən elə bilirdim mənəm dünyada,
Ən kövrək bir insan, Telli Borçalı.
Kövrək olmağına baxdı dünya da,
Oldu qəlbdə tufan, Telli Borçalı.

Yaqubun vəziyyəti kövrəltdi səni,
Yandırdı, qovurdu incə bədəni.
O halın dəhşətə gətirdi məni,
Qəlbimdə dondu qan, Telli Borçalı.

Sən Gülaydan əskik deyilsən heç an,
Səni kövrək yaradıbdır Yaradan.
Ağladın, söylədim sənə can, ay can!
Alışma, nə də yan, Telli Borçalı.

Nə qədər zərifmiş sənin ürəyin,
Olmasa da Yaqub qohumun nəyin.
Bir aləm yaratdı ora gəlməyin,
Sevdi səni qanan, Telli Borçalı.

Sevdim, sevəcəyəm qızım tək səni,
Nəriman Əyyub kimi tanı sən məni.
Sevirəm sənintək ana Vətəni,
Sözlərimdir bəyan, Telli Borçalı.

***10.06.2014***

## ÖZÜM-ÖZÜMƏ

Bu gün nifrət etdim özüm-özümə,
Bir yazıq nadanı təhqir eylədim.
Gücüm də çatmadı olan sözümə,
Təəssüfləndim niyə belə söylədim?

Tənəli söz dedi, mən də dözmədim,
Gərək ki, dözəydim, səbirlənəydim.
Sözləri ağzımda sıxıb əzmədim,
Xoşa gəlməz yoldan gərək dönəydim.

Atalar söyləyib səbirin olsa,
Neçə ağır işə qalib gələrsən.
Səbirli xasiyyət əbədi qalsa,
Dəlinməz şeyləri onda dələrsən.

Unutdum səbiri, özümdən çıxdım,
Mənə yaraşmayan sözləri dedim.
Dediyim sözlərə kənardan baxdım,
Qalan sözü əzdim təcili "yedim".

Ay dözməz səbirim dözməli ol sən,
Hər adi bir sözdən çıxma özündən.
Hirsindən əziyyət çəkəcək bədən,
Heç kim inciməsin olan sözündən.

Sən Nəriman Əyyubsan, saxla o adı,
Qoşulma heç zaman gədə-güdəyə.
Korlaya bilərsən o istedadı,
Oxşa sən əbədi Əyyub dədəyə.

***19.07.2014***



## MÜBARƏK OLSUN

Gözün aydın olsun ay Əliqqo bəy,
Hüseynin toyudur, mübarək olsun.
Mənlə barışmağa heç eyləmə səy,
Səninlə barışmaq o dünyaya qalsın.

Hüseyinə görə gəldim bu toya,
O gözəl insandır, əqilli adam.
Yaxşı hörmətim var o gödək boya,
Fəqət sənin üçün uzağam, yadam.

Bir ovuc əl çirki sizi aldatdı,
Gözümdən tələsik düşdünüz yaman.
Sizi yaramazlar içinə qatdı,
Bir də düzəlməyə qalmayıb güman.

Varlanan heç böyük şəxsiyyət deyil,
Şəxsiyyət, insanlıq xasiyyətdədi.
Səndə olmayıbdır onu yaxşı bil,
Şəxsiyyət qazanılan hörmətdədi..

Danəndə Bəhlulun üç torpağını,
Oxusan hər şeyi başa düşərsən.
Yedirt yaxınlara ürək yağını,
Vicdanın olanda onda bilərsən.

Sən soyuq insansan, yoxdur əqidən,
Satarsan qardaşı bircə manata.
Bu xainlik sənə gəlibdir nədən?
Sən belə baxırsan fani həyata,

Müvəqqəti olan vara inanma,
Bir də gördün tamam getdi əlindən.
Əsil kişilyi unutma, danma,
Əl çək nakişilik olan felindən.

Başa düşsən nələr dedim bəs edər,
Nə lazımdır ona-buna sataşma.
Əsil kişi insan kimi yol gedər,
Allah verən vara kükrəyib daşma.

***29.03.2014***

## SEÇİRSƏN

Öz gözündə tiri görməyən nadan,
Başqanın gözündə qılı seçirsən.
Belə vərdişlərdən əl çəkib utan,
Utanmadan hər sərhəddi keçirsən.

İllərlə görmüşük sənsən alt daşı,
Bu vərdişlə keçiribsən sən yaşı.
Qırırsan göz üstə olan o qaşı,
Utanmadan saxta andı içirsən.

Ağılım yerində, gözüm deyil kor,
Sənin kimiləri tez aparsın gör.
Ona-buna sən atırsan hərdən tor,
Özün donsuz, başqaya don biçirsən.

Heç vaxt ytanmırsan ay zalım qızı,
Başa sal özün tək olan yalqızı.
Heç olmasa insafın olsun azı,
Üzü qaraların yanına köçürsən.

Ona-buna sataşırsan gündəlik,
Şər atmaqdan artıq olmusanləlik.
Ovçular əlində sənsən bir əlik,
Gündə bir ovçunun yanına qaçırsan

Nəriman Əyyubu sanma biganə,
Sən idin mənimçün dəli-divanə.
Olmadın nə ana nə, də ki nənə,
Xoşa gəlməz fikirləri açırsan.

***30.07.2013***



## SƏMƏDABADLI DOSTUM MAHMUD BƏYƏ

Uzaqdan öpürəm səni qardaşım,
Öpürəm ki, ürəyimdə yağ olsun.
Əziz oxucumsan, həm də sirdaşım,
Etibarlı dostsan, üzün ağ olsun.

Dərin oxuyursan yazılarımı,
His edirsən olan etibarımı.
Sən başa düşürsən arzularımı,
Dörd tərəfin çiçək açan bağ olsun.

Nadanlar anlamır nələr yazmışam,
Onların çoxuna qəbir qazmışam.
Dərdlərimi ürəyimə səzmışam,
Sənin kimi dostum min budağ olsun

Sən yaxın dostumsan, həm də sirdaşım,
Sanıram daimi ucadır başım.
Qardaşım tez getdi, sən də qardaşım,
Başının üstündə uca dağ olsun.

Nəriman Əyyubam, qəlbim qəm çəkir,
Bu nəmli dünyada həm də nəm çəkir.
Narahat ürəyim yüz sitəm çəkir,
Səninsə ürəyin daim sağ olsun.

## <u>OXUCU MƏKTUBLARI</u>

## YENƏDƏ BU İLİN MÜBARƏK OLSUN

Gəlişli-gedişli bu yeni ildə,
Şairə xoş sözüm mübarək olsun.
Yaşa, firəvan ol hər bir fəsildə,
Saf ürək şairə qoy gərək olsun.

Sizə söylədiyim xoş olsun söz də,
Arzumdur sizlərə dəyməsin göz də.
Sənin hörmətin var daimi bizdə,
Qəlbində daimi saf ürək olsun.

Daim sağlam yaşa ay şair qağa,
Yayda sənin ilə gedək yaylağa.
Qonaq olaq sərin axan bulağa,
Süfrəmizdə daimi çörək olsun.

Mustafa Qəmliyəm, sevirəm sizi,
Sizin sağlam olan əqiənizi.
Yadından çıxartma daimi bizi,
Yenə də bu ilin mübarək olsun.

***Mustafa Qəmli***
***01.01.2014***

## NƏRİMAN

*Şair dostum Nəriman Əyyuba*

Allah sənə ömür versin,
Yaşa yarat, yaz, Nəriman.
Dünyada qalacaq irsin,
Dünyamızda gəz, Nəriman.

İçin-için ağlayırsan,
Qəlbimizi dağlayırsan.
Çaylar kimi çağlayırsan,
Tükənməyir söz, Nəriman.

Dünya yaman dəyişibdir,
İşləri də əyişibdir.
İşsiz insan keyişibdir,
Sən də ona döz, Nəriman.

Ürəyimdə sözüm çoxdur,
Deməyə imkanım yoxdur.
Sözləriniz sanki oxdur,
Yaz hədəfə düz, Nəriman.

Vurulmuşam sözlərinə,
Mahmud heyran gözlərinə.
Çən düşməsin dizlərinə,
Səndən qalar iz, Nəriman.

***Mahmud***
***29.06.2014***



# MÜNDƏRİCAT


VƏTƏNƏ BÖYÜK MƏHƏBBƏT DUYĞULARI ....................3

ULU ÖNDƏR.................................................................9

TƏRCÜMEYİ-HAL .........................................................45

**RÜBAİLƏR**.....................................................69-167

ŞÜKÜR ......................................................................168

BALOĞLAN................................................................170

GÖZÜN AYDIN OLSUN ...............................................172

TANIMADINMI...........................................................174

DƏMİRÇİ HƏSƏNİN VƏFATI GÜNÜNDƏ.....................176

DƏMİRÇİ HƏSƏNİN DƏFİN GÜNÜNDƏ ......................178

DÜNYA......................................................................180

DÜNYA......................................................................182

AYLI AXŞAM..............................................................184

SEVƏCƏM YENƏ........................................................186

NƏVƏ, NƏTİCƏ..........................................................187

MƏHƏMMƏD....................................................189
ABBAS ƏMOĞLU..............................................190
GÜLÇİN ........................................................192
MÜZAKİR .....................................................193
ALLAHIM......................................................195
BU BEŞ GÜNLÜK DÜNYADA..............................197
SƏNSİZ ........................................................199
QADIR ALLAH...............................................201
NOVRUZ BAYRAMI ........................................202
ANA LAYLASI...............................................203
VEDİDƏ QALDI..............................................205
DİNMƏDİK ...................................................206
UÇUB GETDİ ................................................208
CIĞATEL .......................................................209
TELLİ BORÇALI ...........................................210
ÖZÜM-ÖZÜMƏ...............................................211

MÜBARƏK OLSUN ....................................................213
SEÇİRSƏN.................................................................215
SƏMƏDABADLI DOSTUM MAHMUD BƏYƏ................217

**OXUCU MƏKTUBLARI**

YENƏDƏ BU İLİN MÜBARƏK OLSUN ..........................218
NƏRİMAN .................................................................219

Nərgiz NƏŞRİYYATI

**Baş direktor: Hidayət Musabəyli**

**Korrektor:** *Yasəmən İsmayılova*
**Texniki redaktor:** *Safurə Dadaşova*
**Mətn yığımı – Dizayn:** *Ülviyyə Quliyeva*

Çapa imzalanmışdır: 11.08.2015
Kağız formatı: 60x84 1/16
Həcmi: 14 çap vərəqi
Tiraj: 300 nüsxə; Sifariş: 1043

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyi tərəfindən 1998-ci ildə qeydə alınmışdır.
Şəhadətnamə № 45.
Ünvan:8-ci km qəsəbəsi, R.Rüstəmov küç.36
Nəşriyyatla əlaqə telefonları:
012-323-69-53
050-738-37-22

nesriyyat.nergiz@mail.ru